Günəş Şərqdən doğur!

№ 141 (5422), 2021-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 11 avqust 2021-ci il (çərşənbə)



## 12 nəfər vəfat edib

**Yoluxanların sayı 1700-ü keçdi**

(səh.8)



## Aİ Azərbaycana vaksinasiya üçün maliyyə vəsaitini artırıb

**Avropa İttifaqı (Aİ) COVID-19-a qarşı vaksinin alınması məqsədilə "Şərq Tərəfdaşlığı" proqramına daxil olan ölkələrə maliyyə vəsaitini artırıb.**

Bu barədə Avropa Komissiyası məlumat yayıb.

(səh.2)

## Naxçıvan istiqamətində mövqelərimiz növbəti dəfə atəşə tutulub



**Avqustun 10-u günorta saatlarında** Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsində yerləşən mövqelərindən Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini müxtəlif çaplı silahlardan atəşə tutub.

(səh.2)

# Etiraz doğurdu

## Türkiyə Cenevrədə terrorçuların nümayəndəliyinin açılmasını pisləyib

**İsveçrənin müvəqqəti işlər vəkili Cenevrədə YPG terror təşkilatının *(PKK-nın Suriya qolu)* nəzarətində olan bir strukturun nümayəndəliyinin açılmasına etiraz olaraq Türkiyə Xarici İşlər Nazirliyinə çağırılıb.**

"Suriyanın Şimal və Şərqi Muxtar Administrasiyası" adlandırılan təşkilat PKK/YPG terror təşkilatı ilə birbaşa əlaqəlidir:

"Rəsmi Ankaranın bu mövzuda konkret mövqeyi isveçrəli diplomatın diqqətinə çatdırılıb. Türkiyə bu mövzuda açıqlama gözləyir.




(səh.2)

# Yeni müharibəyə hazır olmalıyıq



**Sülh müqaviləsi heç üfüqdə belə görünmür**

(səh.8)

- **"Hamını Bakıda işə götürə bilmərik"**
  Emin Əmrullayev vakansiyalar məsələsini şərh edib (səh.2)
- **İki nəfər imtahanda ən yüksək bal topladı**
  I və IV qrup üzrə qəbul imtahanlarının nəticələri açıqlanıb (səh.3)
- **Cərimə tələsi millətə dağ çəkir**
  "BNA qədər vətəndaşı soyan ikinci bir qurum yoxdur" (səh.6)
- **Ağdama səfər turları çox gözəl təşəbbüsdür**
  Rey Kərimoğlu: "Ümid edirəm ki, ödəniş də elə böyük olmayacaq" (səh.7)

# Etiraz doğurdu

## Türkiyə Cenevrədə terrorçuların nümayəndəliyinin açılmasını pisləyib




**İsveçrənin müvəqqəti işlər vəkili Cenevrədə YPG terror təşkilatının *(PKK-nın Suriya qolu)* nəzarətində olan bir strukturun nümayəndəliyinin açılmasına etiraz olaraq Türkiyə Xarici İşlər Nazirliyinə çağırılıb.**

Trend-in "Anadolu"ya istinadən verdiyi məlumata görə, "Suriyanın Şimal və Şərqi Muxtar Administrasiyası" adlandırılan təşkilat PKK/YPG terror təşkilatı ilə birbaşa əlaqəlidir:

"Rəsmi Ankaranın bu mövzuda konkret mövqeyi isveçrəli diplomatın diqqətinə çatdırılıb. Türkiyə bu mövzuda açıqlama gözləyir. İsveçrə hakimiyyəti qanlı terror təşkilatlarının təbliğatının və qanuniləşdirilməsi cəhdlərinin heç bir təzahürünə yol verməməlidir".

*Qeyd edilir ki, terror təşkilatları arasında fərq qoymaq yolverilməzdir: "Terrorçulara himayədarlıq edən qüvvələr, bu qanlı təşkilatların onları təhdid etmədiyini əsas gətirərək, səhv siyasətlərinin nəticələri ilə üzləşdikdə çox peşman olacaqlar. Türkiyə Avropa İttifaqının özünündə terror təşkilatı olaraq tanıdığı PKK və onunla əlaqəli təşkilatlara qarşı mübarizəni qətiyyətlə davam etdirəcək".*




## Aİ Azərbaycana vaksinasiya üçün maliyyə vəsaitini artırıb

**Avropa İttifaqı (Aİ) COVID-19-a qarşı vaksinin alınması məqsədilə "Şərq Tərəfdaşlığı" proqramına daxil olan ölkələrə maliyyə vəsaitini artırıb.**

"Report" TASS-a istinadən xəbər verir ki, bu barədə Avropa Komissiyası məlumat yayıb.

Bildirilib ki, Azərbaycan, Belarus, Gürcüstan, Moldova, Ukrayna və Ermənistana ayrılan məbləğ əlavə 35 milyon avro artırılaraq 75 milyon avroya çatdırılıb.

*Qeyd edək ki, Aİ bu məqsədlə cari ilin fevralında "Şərq Tərəfdaşlığı" proqramına daxil olan ölkələrə 40 milyon avro ayırmışdı.*

## Naxçıvan istiqamətində mövqelərimiz növbəti dəfə atəşə tutulub



**Avqustun 10-u günorta saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsində yerləşən mövqelərindən Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini müxtəlif çaplı silahlardan atəşə tutub.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, Azərbaycan Ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur.

Qarşı tərəf cavab atəşi ilə susdurulub.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

## "Google" Azərbaycanda ən populyar axtarış sistemi olub

**2021-ci ilin iyulunda Azərbaycanın axtarış sistemi bazarında 92,54 faiz paya sahib olan "Google" ölkədə ən populyar axtarış sistemi kimi qalmaqda davam edib.**

Trend bu barədə "Global Stats" statistika mərkəzinə istinadən məlumat verir.



İyun ayı ilə müqayisədə "Google" axtarış sisteminin payı 1,09 faiz azalıb.

Hesabat dövründə "Yandeks" axtarış sisteminin payı 4,01 faiz artaraq 6,03 faiz təşkil edib.

"Bing" axtarış sisteminin payı 0,56, "Yahoo"nun payı isə 0,44 faizə bərabər olub.

Azərbaycanın axtarış sistemi bazarında 0,43 faiz digər axtarış sistemlərinin payına düşüb.



## Türkiyə və Gürcüstan Prezidentləri arasında telefon danışığı olub

**Gürcüstan Prezidenti Salome Zurabişvili ilə türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub.**

APA-nın yerli bürosu xəbər verir ki, bu barədə Gürcüstan Prezidenti S.Zurabişvili özünün "Twitter" hesabında paylaşım edib.

"Gürcüstan Türkiyə ilə yaxın dost və qonşu ölkələrdir. Mən bu gün gördüyümüz faciəvi meşə yanğınları ilə əlaqədar Türkiyə xalqı ilə həmrəyliyimizi çatdırmaq üçün Prezident Ərdoğanla danışdım. Bu çətin vəziyyətin tezliklə sona çatacağına ümid edirəm", deyə Gürcüstan prezidenti qeyd edib.

## BMT Əfqanıstandakı vəziyyətdən narahatlığını ifadə edib

**BMT Əfqanıstandakı vəziyyətin siyasi həlli üçün bu ölkədəki tərəflər ilə danışıqları davam etdirir. Trend-in "TASS"a istinadən verdiyi məlumata görə, bunu brifinq zamanı BMT-nin baş katibinin rəsmi nümayəndəsi Stefan Cüjarrik deyib.**

S.Cüjarrik bildirib: "Siyasi həll yolu tapmaq üçün Əfqanıstandakı və bölgədəki tərəflərlə danışıqları davam etdiririk. Mətbuatdan gördüyümüz kimi yerdəki vəziyyət son dərəcə narahatlıq doğurur".

Onun sözlərinə görə, kənd yerlərində şiddətli döyüşlər gedir, dinc əhali əziyyət çəkir: "Siyasi prosesə önəm vermək üçün bütün bunlar nəzərə alınmalıdır".

# "Hamını Bakıda işə götürə bilmərik"

## Emin Əmrullayev vakansiyalar məsələsini şərh edib



**Azərbaycanın Təhsil naziri Emin Əmrullayev müəllimlər üçün vakansiyaların gizlədilməsi barədə vaxtaşırı sosial şəbəkədə yayılan söhbətləri şərh edib. O, vətəndaşları belə hallarla bağlı Nazirliyi məlumatlandırmağa çağırıb.**

"Təhsil Nazirliyi vakansiyaları hər zaman göstərir və bu çap ediləcək. Əgər düşünürsünüz ki, kimsə hansısa vakansiyalarla bağlı məlumatları gizlədir, onda həmin məlumatları bizə göndərə bilərsiniz", - nazir deyib.

**Emin Əmrullayev bildirib ki, vakant yerlərin sayını hər il artırmaq mümkündür:**

"Vakansiyalar fənlər üzrə də fərqlənə bilər. Əvvəllər birinci sinfə şagird qəbulu çox olsa da, bu gün bu göstərici aşağı düşür. Ona görə də ola bilsin ki, növbəti illərdə ibtidai siniflər üzrə vakansiya sayı aşağı düşə bilər".

*Nazirin sözlərinə görə, müəllim olmaq istəyən namizədlərin heç də hamısı işsiz deyil. Bununla belə, hamının Bakıda işləmək arzusunu da yerinə yetirmək imkansızdır.*

"Bizi də başa düşmək lazımdır ki, hamını Bakıda işə götürə bilmərik. Kənd məktəblərinin sayı kifayət qədərdir və həmin yerlərə də müəllim göndərmək lazımdır. Bəllidir ki, bəzi xanımların ailəvi məsələlərə görə ora getməsində müəyyən problemlər yaranır", - deyə nazir əlavə edib.

# Lavrovla ciddi məsələlər müzakirə olunub

## Ceyhun Bayramov danışıqlardan əvvəl dövlət başçısından xüsusi tapşırıqlar alıb



**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovla Rusiyanın Xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub. Nazirlər Azərbaycan-Ermənistan dövlət sərhədində mövcud olan vəziyyəti və üçtərəfli bəyanatların icrası ilə əlaqədar məsələləri, o cümlədən bölgədə iqtisadi və nəqliyyat əlaqələrinin açılması ilə bağlı üçtərəfli işçi qrupunun fəaliyyətinə dair məsələləri müzakirə ediblər.**

Tərəflər, eyni zamanda ikitərəfli əməkdaşlıq gündəliyinə daxil olan məqamlar, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq üzrə fikir mübadiləsi aparıblar. Nazirlər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər haqqında danışıblar.

**Politoloq, siyasi elmlər doktoru Cümşüd Nuriyev tərəflər arasındakı müzakirə barədə "Şərq"ə fikir bildirib:** "Bildiyiniz kimi, hazırda sərhədlərin delimitasiyası və demarkasiyası prosesi gedir. Ermənistan yaxşı bilir ki, son otuz ildə işğalda saxladığı torpaqlar əslində onun deyil. İkinci bir tərəfdən, rus qoşunlarının Qazaxda yerləşməsi mütləq Azərbaycanın razılığı ilə olmalıdır. Amma hələlik belə bir razılıq yoxdur. Qazaxın kəndlərinin qaytarılması isə artıq gündəmdədir. Bu barədə Ermənistan parlamentində də müzakirə edilir. Fikrimcə, nazirlər sözügedən məsələ barədə danışıblar".

**C.Nuriyev, həmçinin digər müzakirə predmetlərini də sadalayıb:** "Rusiyada müxalifət partiyasının sədri Vladimir Jirinovski verdiyimiz notadan sonra yenə təxribat törətdi. O, bu dəfə də Azərbaycanın qələbəsinə kölgə salmağa cəhd etdi. Çox güman, Ceyhun Bayramov bu məqamı da unutmayıb. Eyni zamanda 11 yanvarda imzalanan üçtərəfli bəyanatın şərtlərinin icrasını da öhdəlik götürən tərəfə, yəni Moskvaya xatırladılması istisna deyil. Bütün hallarda, əlbəttə, Ceyhun Bayramov telefon danışığından əvvəl dövlət başçısından xüsusi tapşırıqlar alıb. Və onun qaldırdığı məsələlərdə də əvvəlcədən razılaşdırılıb".

**Kənan**



# Azərbaycana az sayda ölkələrdən turistlər gəlir

## Gələnlər əsasən ərəb ölkələrindən, Türkiyə və Rusiyadandır

**Pandemiya dövründə xaricdən Azərbaycana gələn turistlərin sayında kəskin azalma var. Hazırda Azərbaycana az sayda ölkələrdən turistlər gəlir.**

Bunu Trend-ə turizm üzrə ekspert Ceyhun Aşırov deyib.

C.Aşırov bildirib ki, hazırda xaricdən Azərbaycana əsasən ərəb ölkələrindən, Türkiyədən və Rusiyadan gəlirlər:

"Azərbaycana 9 ölkədən gəlməyə icazə verilib, yəni Azərbaycan 9 ölkə ilə hava sərhədlərini açıb. Müəyyən pandemiya qaydaları daxilində həmin ölkələrdən Azərbaycana insanlar gələ bilərlər.

Gələnlər həm istirahət, həm də iş məqsədi ilə Azərbaycana üz tuturlar. Ancaq gələnlərin təqribən 80 faizi turizm məqsədi ilə gəlir. Əlbəttə ki, səfərlər pandemiya qaydaları çərçivəsində baş tutur. Xaricdən gəliş kütləvi xarakter daşımır".

# İki nəfər imtahanda ən yüksək bal topladı

## I və IV qrup üzrə qəbul imtahanlarının nəticələri açıqlanıb

Dövlət İmtahan Mərkəzi tərəfindən I və IV ixtisas qrupları üzrə 27-28 iyul 2021-ci il tarixlərində keçirilmiş qəbul imtahanlarının nəticələri elan edilib.

DİM-dən "Şərq"ə verilən məlumata görə, imtahanda iştirak edən abituriyentlər imtahan nəticələri, "cavab kartı" və "cavab vərəqi"nin qrafik təsvirləri, həmçinin hər bir açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları (tapşırığın ehtimal olunan doğru cavabları, həlli və qiymətləndirmə şkalası) ilə buradan tanış ola bilərlər.

Abituriyentlər imtahanın nəticələri haqqında məlumatı, həmçinin mobil operatorlar (Azercell, Bakcell, Nar, Naxtel) vasitəsilə "iş nömrəsi"ni 7727 nömrəsinə göndərməklə də öyrənə bilərlər.

İmtahanda iştirak etmək üçün ərizə təsdiq etmiş 33610 abituriyentdən (I qrup üzrə 28605 nəfər, IV qrup üzrə 5005 nəfər) 1878 nəfəri (I qrup üzrə 1696 nəfər, IV qrup üzrə 182 nəfər) imtahanda iştirak etməyib. İmtahanda iştirak edən abituriyentlərdən 26 nəfəri qaydaları pozduqlarına görə imtahandan xaric olunub və nəticələri ləğv edilib.

Bu imtahanda I ixtisas qrupu üzrə ən yüksək nəticəni 400 bal toplayan 11 nəfər - Qubadlı rayonu, Çaytumas kənd orta məktəbi, Bakı şəhəri 217 və 297 saylı orta məktəblər, Sumqayıt şəhəri, 11 saylı orta məktəb (2 nəfər), Sumqayıt şəhəri, "İstedad" liseyi (humanitar və təbiət-riyaziyyat təmayüllü), Şəki rayonu, 18 saylı şəhər orta məktəbi, Quba rayonu, Bağbanlı kənd orta məktəbi, Abşeron rayonu, Xırdalan şəhər 2 saylı orta məktəbi, Şirvan şəhəri, 1 saylı şəhər orta məktəbi, Qazax rayonu,1 saylı şəhər orta məktəbin məzunları göstəriblər.

Sumqayıt şəhəri, 11 saylı orta məktəbin məzunu hər iki mərhələnin cəminə görə 697.1 bal toplayıb və bu nəticə I ixtisas qrupu üzrə ən yüksək baldır.

Bu imtahanda IV ixtisas qrupu üzrə ən yüksək nəticəni isə 400 bal toplayan 2 nəfər - Cəbrayıl rayonu, Sirik kənd orta məktəbi və Quba rayonu, Rustov kənd orta məktəbinin məzunları göstəriblər.

Cəbrayıl rayonu, Sirik kənd orta məktəbinin (Ə.Veysəlov adına) məzunu hər iki mərhələnin cəminə görə 692.5 bal toplayıb və bu nəticə IV ixtisas qrupu üzrə ən yüksək baldır.





Xatırladaq ki, imtahanın I mərhələsində maksimal olaraq 300, II mərhələsində isə 400 bal toplamaq mümkündür. Müsabiqə hər iki mərhələdə toplanılan balların cəminə görə aparılır.

İmtahan nəticələri ilə bağlı müraciətlərə baxılması üçün DİM tərəfindən 13 avqust 2021-ci il tarixindən etibarən onlayn ("Zoom" proqramı və ya telefon əlaqəsi vasitəsilə) apellyasiya prosesi təşkil ediləcək. Apellyasiya komissiyasına müraciət etməmişdən əvvəl abituriyentlər DİM-in saytında, imtahan nəticələri ilə bağlı səhifədə öz nəticələri, cavab vərəqinin qrafik təsviri, hər bir açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları ilə tanış olmalıdırlar. Ötən imtahanların təcrübəsi göstərir ki, apellyasiya üçün ərizə yazanların təqribən 20%-i ümumiyyətlə tapşırığa cavab verməyib və ya öz cavabı ilə mümkün doğru cavabları, qiymətləndirmə şkalasını müqayisə edib tanış olmadan komissiyaya müraciət ediblər. Abituriyentlərin nəzərinə çatdırırıq ki, bu tip müraciətlərə baxılmayacaq.

Apellyasiya komissiyasına müraciət etmək istəyənlər 11-13 avqust tarixlərində apelyasiya.dim.gov.az saytında yerləşdiriləcək elektron ərizəni doldurmaqla qeydiyyatdan keçə bilərlər. Göstərilən müddət ərzində qeydiyyatdan keçməyənlər sonradan apellyasiya üçün müraciət edə bilməyəcəklər. Elektron ərizədə müraciətin məzmunu qeyd olunmadığı halda ərizə qəbul edilmir, həmin müraciət araşdırılmır və onun üçün apellyasiya təşkil olunmur. Apellyasiya müzakirəsində abituriyentin iştirakı vacibdir. Abituriyent ilə yanaşı valideynlərindən biri müzakirədə iştirak edə bilər. Bir abituriyentin ərizəsi (müraciəti) üzrə ən çox 15 dəqiqə müzakirə aparıla bilər. Ayrılan vaxt bitdikdə, kənar şəxs müzakirəyə qoşulduqda və ya etik davranış qaydaları pozulduqda müzakirə prosesi dayandırılır.

Müsabiqə şərtlərini ödəyən abituriyentlər üçün ixtisas seçimi tarixləri haqqında əlavə məlumat veriləcək.

*QEYD: 14-15 iyul tarixlərində II və ya III ixtisas qrupu üzrə imtahan vermiş və nəticələri ilə əlaqədar Apellyasiya Komissiyasına müraciət etmiş abituriyentlərin nəzərinə çatdırırıq ki, Komissiya artıq öz işini yekunlaşdırıb və nəticələrində dəyişiklik edilmiş şəxslərin səhifəsində müvafiq düzəlişlər öz əksini tapıb.*

# Sərhəddə rus qoşunlarının görünməsi təhlükəli deyil

## Görünən odur ki, Ermənistan Qazaxın işğal altında olan kəndlərini rus tərəfinin əli ilə Azərbaycana geri qaytarmaq fikrindədir



### Paşinyan sərhəd məsələsini və ümumiyyətlə, Qarabağ ermənilərinin problemlərini Rusiyanın öhdəsinə buraxmaq istəyir

**Son günlər Rusiya sərhədçiləri Azərbaycanın Qazax rayonu ilə həmsərhəd Ermənistanın Voskepar kəndində dislokasiya edilir. Onların görünüşü Ermənistanda çoxlu suallar doğurub.**

Bu ölkənin Müdafiə Nazirliyi, sərhədçilərin bölgədə "maddi -texniki dəstək inşaat işləri" apardıqlarını söyləyiblər. Digər bir iddia isə odur ki, Paşinyan artıq Kremllə sərhədlə bağlı razılaşmalar əldə edib. Bu arada, 90-cı illərin əvvəllərində ermənilər tərəfindən ələ keçirilən iki anklavın Azərbaycana tezliklə qayıdacağı barədə şayiələr Ermənistanda fəal müzakirə olunur. Qeyd edək ki, bir gün əvvəl Rusiya Xarici İşlər Nazirliyinin nümayəndələri Ermənistanın Baş naziri Nikol Paşinyanın Rusiya sərhədçilərinin Azərbaycanla sərhəddə yerləşdirilməsi təklifini rədd etmişdilər. Maraqlıdır, mövcud durumda Paşinyanın əsas istəyi nədir? Paşinyan Kremldən nəyi arzulayır? Əgər rus qoşunları sərhəddə yerləşdirilərsə, onun Azərbaycan üçün hansı təhlükələri ola bilər?

**Suallarımıza BAXCP sədrinin müavini, politoloq Azər Qasımov aydınlıq gətirib. Politoloq qeyd edib ki, Qazaxla sərhəddə rus qoşunlarının peyda olmasında elə də ciddi mətləblər axtarmağa ehtiyac yoxdur:** "Görünən odur ki, Ermənistan Qazaxın işğal altında olan kəndlərini rus tərəfinin əli ilə Azərbaycana geri qaytarmaq fikrindədir. Ümumiyyətlə, burada rus tərəfinin mövcud olması mütləqdir. Çünki bəzi kəndlər eksklavdır, yeni Azərbaycanın ərazisi olsa da, Ermənistan əraziləri daxilindədir. Bu baxımdan da həmin kəndlərə gedişgəlişin hələlik rus ordusu mənsublarının müşayiəti və qoruması altında olması təbiidir. Paşinyanın Kremllə bunu razılaşdırdığı açıqdır".

**A.Qasımov əlavə edib ki, Paşinyan sərhəd məsələsini və ümumiyyətlə, Qarabağ ermənilərinin problemlərini Rusiyanın öhdəsinə buraxmaq istəyir:** "Paşinyanın fikrincə, bu məsələlər onsuz da, Ermənistanın həll edə biləcəyi məsələlər deyil. Rus qoşunlarının bizim sərhədə gəlməsində əslində təhlükəli heç nə görmürəm, əgər hadisələr indiki kimi davam edəcəksə. Əslində rus qoşunlarının sərhəddə durması yeni məsələ deyil. Xatırladım ki, Azərbaycanın Rusiya ilə də sərhəddi var və bu sərhəddə heç bir problem yoxdur, ya da problem yaradılmayıb".

**Aynurə Pənahqızı**

# İndiki vəziyyətdə müharibə gözlənilmir

## Sərdar Cəlaloğlu: "Elə etmək lazımdır ki, sülhməramlılar BMT-nin nəzarətinə keçsinlər"



**Etibarlı mənbələrdən daxil olan məlumatlara əsasən, son günlərdə Ermənistan silahlı qüvvələri aktiv şəkildə Qarabağdakı Rusiya sülhməramlılarının məsuliyyət zonasına yerləşdirilməsi həyata keçirilir.**

Bu barədə "Caliber" layihəsinin "YouTube" səhifəsində yayımlanan növbəti süjetdə bildirilir. "Məlumata əsasən, Ermənistan 12 "Kamaz", 3 "Ural" və digər yük maşınları ilə şəxsi heyəti qeyd olunan ərazilərə daşıyır.

"Bununla yanaşı, mülki geyimli hərbçilərin minik avtomobillərində Qarabağa yerləşdirilməsi də həyata keçirilir", - deyə videomaterialda qeyd olunur.

**Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu "Şərq"ə açıqlamasında bu məlumatın nə qədər dəqiq və obyektiv olduğunu bilmədiklərini deyib:** "Rusiyanın növbəti təxribatı və ya Ermənistan hakimiyyətinin ictimaiyyəti sakitləşdirmək cəhdi də ola bilər. Hər halda hələlik müharibə gözlənilmir. Sadəcə, Azərbaycan Rusiyanın Qarabağdakı missiyasını dəqiqləşdirməlidir. Elə etmək lazımdır ki, sülhməramlılar BMT-nin nəzarətinə keçsinlər. Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi sülhməramlıların fəaliyyəti barədə daimi məruzələr etməlidir. İndiyədək bir dənə də olsun hesabat hazırlanmayıb".

**Kənan**

# Lukaşenkonun hakimiyyətdən getməsi üçün zəmin yoxdur

## O, xalqı sakitləşdirmək, ömürlük hakimiyyətdə olmayacağına dair ictimai rəy yaratmaq istəyir



**Belarus Prezidenti Aleksandr Lukaşenko jurnalistlər və ictimaiyyət nümayəndələri ilə görüşündə vəzifədən nə vaxt gedəcəyi ilə bağlı açıqlama verib. O deyib ki, Lukaşenkonun vəzifəsindən gedəcəyi vaxtı axtarıb tapmağa ehtiyac yoxdur. Tezliklə bu, olacaq.**

"Mən bu ölkədə böyümüşəm. O mənimdir. Təqaüdə çıxmaq və başqa bir işlə məşğul olmağı təsəvvür edə bilmirəm. Lakin bu, o demək deyil ki, mən vəzifə kürsüsündən dördəlli yapışmışam. Yox. Məndən sonra da adamlar gələcək. Hətta tezliklə. Ancaq siz bu dəyişikliyin vaxtı ilə bağlı narahat olmayın. Lukaşenkonun nə vaxt gedəcəyini tapmacaya çevirməyin. Bu, çox tezliklə olacaq", - deyə Aleksandr Lukaşenko bildirib.

Belarus Prezidenti vurğulayıb ki, bir il əvvəl ölkə siyasi təlatüm yaşadı və həmin hadisələr ölkəyə başçılıq edə biləcək 15-20 nəfərin olduğunu sübut etdi.

**Politoloq İlqar Vəlizadə Belarus dövlət başçısının açıqlamasını "Şərq"ə şərh edib:**

"Fikrimcə, bu, siyasi ritorikadır. Lukaşenkonun vəzifədən getməsi keçən ildən gündəmdədir. O, bu yolla xalqı sakitləşdirmək, ömürlük hakimiyyətdə olmayacağına dair ictimai rəy yaratmaq istəyir. Əslində bu həm də Qərbə mesajdır. Amma hələlik Lukaşenkonun hakimiyyətdən getməsi üçün zəmin yoxdur".

**Kənan**

# "Ermənistanın yekun sülh müqaviləsinə qol çəkəcəyinə inanmıram"

## Qulu Məhərrəmli: "...Beynəlxalq təşkilatların ciddi dəstəyi prosesləri başqa məcraya yönəldir"



**Ermənistanla sərhəd xəttində vəziyyət hələ ki, stabil deyil. Lakin düşmənin gücü tədricən tükənir. Bunu rəsmi İrəvan özü də başa düşür. Prezident İlham Əliyevin təklif etdiyi yekun sülh müqaviləsini imzalamaq indiki halda Ermənistan üçün, belə demək mümkünsə, göydəndüşmə fürsətdir.**

Di gəl düşmən inadından əl çəkmir. Hansısa möcüzəyə ümid edən Paşinyan hakimiyyəti, görünür, nağıllar aləmində yaşayır...

**"Şərq" olaraq tərəflər arasındakı yekun sülh müqaviləsi və bundan doğan digər məqamlarla bağlı BDU-nun Jurnalistika fakültəsinin professoru, siyasi şərhçi Qulu Məhərrəmli ilə söhbətləşdik:**

**- Yekun sülh müqaviləsi yaxın gələcək üçün nə qədər real görünür?**

- Ermənistan bunun üçün tələsmir. Və ciddi səbəblər var.

**- Nələr?**

- Məsələ ondan ibarətdir ki, düşmən üçün bir çox məqamlar hələ aydınlaşmayıb. Buna misal olaraq Qərblə əlaqələri, Rusiya ilə strateji müttəfiqliyi, Azərbaycanla münasibətləri göstərmək olar.

**- Düşünürsünüz ki, İrəvan Qərblə Moskvanın arasında qalıb?**

- Ermənistanın Qərbyönümlü siyasi xətti aydın görünür. Amma həqiqətən, Rusiyanın iradəsinə qarşı çıxa biləcəkmi, siyasətində sərt dönüşlər edəcəkmi? Məncə, bu, mümkün deyil. Onu da deyim ki, biz indiyədək Ermənistanı Rusiyanın forpostu kimi tanıyırdıq. Diasporun fəaliyyəti, ABŞ-Ermənistan münasibətləri, Avropa İttifaqının, Avropa Şurasının İrəvana ciddi dəstəyi isə prosesləri başqa məcraya gətirir. Belə olan halda Ermənistanın yekun sülh müqaviləsinə qol çəkəcəyinə inanmıram. Bunun üçün daxildə çox ciddi hadisələr baş verməlidir.

**- Hazırkı prosesləri necə qiymətləndirirsiniz?**

- Bir sıra mübahisəli məqamlar həllini tapmaqdadır. Əlbəttə, Ermənistan şərtlərimizi yerinə yetirməyə məhkumdur. Bunun başqa yolu yoxdur. Əks halda onun üçün ciddi təhlükələr yaranacaq.

**- Bəs təxribatlar nə ilə nəticələnəcək?**

- Bu, təbii qarşılanmalıdır. Yekun sülh müqaviləsinədək belə provokasiyalar olacaq. Nəzərə almaq lazımdır ki, Ermənistanda Paşinyan hakimiyyətini qəbul etmək istəməyənlərin əlində ciddi təsir imkanları var. Onlar bilərəkdən "suyu bulandırırlar".

**Kənan Novruzov**

# "Yeni sənədin konturları təxmini məlumdur"



Sabir Məmmədli: "Azərbaycan buna razı olmamalıdır və olmayacaq"

## Məsələ Azərbaycan-Ermənistan sərhədini rusların qorumasından gedir

**"Üçtərəfli razılığa əsasən hər bir tərəf - Azərbaycan, Rusiya və Ermənistan öz üzərinə öhdəlik götürüb. Liderlər həmin sənədi ciddi qəbul edirlər".**

**Bunu sərhəddəki təxribatlar barədə "Şərq"ə danışan BDU-nun Jurnalistika fakültəsinin professoru, siyasi elmlər doktoru Sabir Məmmədli deyib. Onun fikrincə, genişmiqyaslı hərbi əməliyyatlar gözlənilmir:** "Düzdür, Moskva İrəvanın əli ilə üçtərəfli razılıqdan kənara çıxmağa çalışır. Amma böyük hərbi konflikt həm Ermənistanın, həm də Rusiyanın ziyanınadır. Faktiki olaraq Ermənistan ordusu məhv edilib. Həmçinin nəzərə almaq lazımdır ki, indiki vəziyyət Kremlin xeyrinədir. Şimal qonşumuz hərbçilərini Qarabağa yığıb. Əlbəttə, Qərb bundan narazıdır. ABŞ-la Fransa Rusiyanın Cənubi Qafqazda möhkəmlənməsini qəbul etmirlər. Yeni hərbi konflikt həmin dövlətlər üçün bəhanə olar. Odur ki, Moskvanın müharibəyə təhrik edəcəyinə inanmıramn. Bu, Rusiyanın Cənubi Qafqazdan çıxmasına şərait yaradar".

**S.Məmmədli, Moskvanın qeyri-adekvat davranışlarının arxasında nəyin dayandığını da izah edib:** "Sadəcə, Azərbaycanı sıxışdırıb yeni müqaviləyə imza atdırmaq istəyirlər. Həmin sənədin konturları təxmini məlumdur. Məsələ Azərbaycan- Ermənistan sərhədini rusların qorumasından gedir. Bu, hər iki dövlətə nəzarətdir. Prezident İlham Əliyevlə rusiyalı həmkarı Vladimir Putin arasında keçirilən görüşdə də Kreml sahibi hansısa güzəştlərin məqsədəuyğun olduğunu demişdi. Fikrimcə, o, elə buna eyham vururdu. Amma bundan sonra hansısa güzəşt rəsmi Bakı üçün çətin vəziyyət yarada bilər. Əlbəttə, bizim icazəmiz olmadan heç bir ikinci dövlətin ordusu sərhədlərimizi qoruya bilməz. Düşünürəm ki, Azərbaycan buna razı olmamalıdır və olmayacaq".

**Kənan Novruzov**



## "Ayna-Zerkalo" qəzetinin yenidən nəşri gözlənilmir

Baş redaktor hesab edir ki, buna zəmin, şərait yoxdur

**"Ayna-Zerkalo" qəzeti bir vaxtların ən çox oxunan mətbuat orqanlarından idi. Qəzet obyektiv mövqeyi, təhlilləri ilə geniş oxucu auditoriyası yığmışdı. Sonradan sözügedən KİV nümunəsinin fəaliyyəti dayandı. Hazırda isə "Ayna-Zerkalo" elektron formada oxucuları ilə görüşür.**

*Qəzetin təsisçisi və baş redaktoru Elçin Şıxlı "Ayna"nın yenidən nəşrə başlayıb-başlamayacağına dair "Şərq"in sualını cavablandırıb:* "Hələlik buna zəmin görmürəm. Çünki qəzet özü-özünü dolandırmalıdır. Satış sisteminin və reklam bazarının hansı vəziyyətdə olması hər kəsə məlumdur. Odur ki, əvvəlcə bu problemlər həllini tapmalıdır. Sonra "Ayna-Zerkalo"nun nəşri barədə düşünmək olar".

**Kənan**

# Muğladakı təhlükəli Milas yanğını nəzarətə götürülüb



**Türkiyənin Muğla vilayətinin Milas rayonundakı meşə yanğını nəzarətə alınıb.**

**APA-nın yerli bürosunun xəbərinə görə, bunu Türkiyənin meşə və kənd təsərrüfatı naziri Bekir Pakdemirli özünün twitter səhifəsində yazıb.**

Nazir bildirib ki, 11 gündür davam edən Milas yanğınının hazırda tamamilə söndürülməsinə cəhd edilir.

Nazir Milas yanğınını xərçəng xəstəli ilə müqayisə edərək, "xərçəng kimi gözlənilməyən yerlərdən üzə çıxan yanğınla qarşı-qarşıyayıq", - deyə yanğının təhlükəli olduğunun ifadə etmişdi.

Qeyd edək ki, Türkiyənin Meşə və Kənd Təsərrüfatı Nazirliyinin nəzdindəki Meşə Baş İdarəsi son 14 gündə baş verən yanğınlar haqqında açıqlama yayıb. Bildirilib ki, son 14 gündə 53 vilayətdə 275 meşə yanğınından 272-si nəzarətə alınıb.

*B.Pakdemirli isə söndürülməkdə olan Milas yanğını ilə birlikdə bu rəqəmin 273 olduğunu yazıb.*

# Azərbaycan hərbçiləri təlimlərdədirlər

**Azərbaycan Silahlı Qüvvələrinin 14 əməkdaşı Türkiyədə təlimlərdə iştirak edir. Bu barədə Sputnik Azərbaycan Türkiyənin Milli Müdafiə Nazirliyinə istinadən xəbər verir.**

"Hava Qüvvələri personalımız tərəfindən qardaş Azərbaycan Silahlı Qüvvələrinin 14 əməkdaşına Yaxın Hava Dəstəyi fəaliyyətləri çərçivəsində Qabaqcıl Hava Nəzarətçisi təlimləri keçirilir", - deyə Nazirliyin Tvitter səhifəsində qeyd olunub.





# KTMT nüfuzunu artırmağa cəhd edir

## Baş katibin Ermənistan səfərinin bir neçə səbəbləri görünməkdədir

**Xəbər verdiyimiz kimi, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi Stanislav Zas Ermənistanda səfərdədir. O, səfər çərçivəsində ölkənin Baş naziri Nikol Paşinyan, XİN və Müdafiə nazirliyinin rəhbərliyi ilə görüşəcək.**

Baş katib bildirib ki, Ermənistan-Azərbaycan sərhədindəki vəziyyətin siyasi yolla tənzimlənməsi imkanları tükənməyib: "Əgər problemin həlli yollarından danışsaq, o zaman düşünürük ki, bu vəziyyətin siyasi yolla həlli imkanları tükənməyib, bu, hər kəs üçün ən yaxşı variant olardı".

Azərbaycan Demokrat Partiyası sədrinin müavini, politoloq Həsrət Rüstəmov səfərin hansı məqsədlə baş tutduğuna dair fikirlərini "Şərq"lə bölüşüb. Onun sözlərinə görə, KTMT tamamilə mənasız bir quruma çevrilib: "Xüsusilə də son vaxtlar Orta Asiya Respublikaları ilə Türkiyə münasibətlərinin yüksək səviyyədə olması ilə KTMT öz nüfuzunu tamamilə itirmək üzrədir.

Ona görə də səfərin bir səbəbi bu ola bilər. Digər səbəb təşkilatın əsas yaradıcısı olan Rusiyanı müəyyən qədər nəzarətdə saxlamaq üçün edilən cəhdlərdir.

Səfər həmçinin Ermənistana siyasi dəstək verəcək bir səfər kimi də qiymətləndirilə bilər. Hər üç halda səfərin heç bir xüsusi və siyasi əhəmiyyəti yoxdur. Çünki Ermənistanda bilavasitə rus qoşunları var. Ola bilsin, gələcəkdə onların adını bəlkə də, KTMT-nin qoşunu kimi adlandırsınlar.

İstənilən halda hamı başa düşür ki, onlar Rusiyanın qoşunudur və rus qoşunu haradadırsa, ora Rusiya ərazisi hesab olunur. Bu baxımdan səfər xüsusi bir əhəmiyyət kəsb etmir".

**Yeganə Bayramova**








*Millət vəkilləri ilə Bakı Nəqliyyat Agentliyinin qalmaqalı böyüyür*

# Cərimə tələsi millətə dağ çəkir

## "BNA qədər vətəndaşı soyan ikinci bir qurum yoxdur"

Millət vəkili Fazil Mustafa Bakı Nəqliyyat Agentliyinin (BNA) fəaliyyətini sərt tənqid edib. Deputat bununla bağlı feysbuk hesabında yazıb:

"Xatırlayırsınızsa, ötən gün bir müsahibəmdə Bakı Nəqliyyat Agentliyi tərəfindən həyata keçirilən soyğunçuluq mexanizmi haqqında fikirlər səsləndirmişdim. Bildirmişdim ki: "BNA qədər vətəndaşı soyan ikinci bir qurum yoxdur. Bu qurum şəhərdə lazımi infrastruktur yaratmayıb, yolun yarısını avtobuslar üçün nəzərdə tutub, amma vətəndaş tıxacda qalır. Necə yəni, onların vaxtı dəyərli deyil? Sən vətəndaşa münasib yol yaratmamısansa, niyə ondan cərimə pulu alırsan?". Üstəlik də hər gün minlərlə nəqliyyat idarə edən Azərbaycan vətəndaşı müəmmalı şəkildə qeydiyyat aparan kameralar vasitəsi ilə cərimələnir və haradasa ölkədə boynunda cəriməsi olmayan vətəndaş tapmaq çətindir.

Hamımız bilirik ki, pandemiya dövründə vətəndaşların gəlirləri xeyli azalıb, insanlarımız yoxsullaşıb, məşğulluq səviyyəsi də aşağı düşüb. Digər tərəfdən ölkə prezidentinin rəhbərliyi altında 44 günlük savaşda qazanılan qələbə üçün də imkanı çatan hər bir vətəndaşımız canı ilə, qanı ilə, malı ilə böyük fədakarlıq göstərib. İndi bu vətəndaş hər gün şəhərdə əksər yerlərdə iki dəqiqə avtomobilini saxlamaqla böyük bir cərimə yükünü öz boynuna götürməli olur. Üstəlik də avtobus yollarının digər nəqliyyat vasitələrinin yolunu daraltmaq hesabına zolaqla ayrılması da şəhərdə lüzumsuz tıxacların yaranmasına səbəb olur. Bütün bunların ağrısını, acısını onsuz da yoxsul vəziyyətdə olan vətəndaşımız çəkməkdədir. Bu həm də 44 günlük savaşda qələbəmizin memarı olan ölkə prezidentinin apardığı siyasətə qarşı narazılıq elementlərinin artmasına səbəb olan ciddi amillərdən biridir.

Bütün bu tənqid və iradlarıma cavab verən BNA təmsilçisi bunların ağ yalan olduğunu və Agentliyin müqəddəs bir fəaliyyətlə məşğul olduğunu iddia etməyə çalışdı. Üstəlik bizim məqsədli şəkildə bu ittihamları səsləndirdiyimizi xüsusi olaraq vurğulayıb. Burada əslində haqlılıq payı mövcuddur, çünki həqiqətən də bu irad və ittihamları səsləndirməkdə məqsədimiz var və əsas məqsədimiz də BNA tərəfindən cərimə oyunbazlığı vasitəsi ilə sürücülərin kütləvi şəkildə soyulmasının qarşısını almaqdır. Maraqlıdır ki, görülən işlərin miqyasını görmək üçün bu qurumun mətbuat xidmətinin rəhbəri şəxsimə alternativ iki hərəkət formasından birini seçməyi tövsiyə edib. Həm də bunun qurumun rəhbərliyi və bütün kollektivi adından edilən tövsiyə olduğunu vurğulayıb. Bunlardan birincisi, bəndənizə şəhərdə piyada gəzmək, ikincisi isə ictimai nəqliyyatdan istifadə etmək tövsiyə olunur. Burada əlbəttə, tövsiyənin hər iki variantından aydın olur ki, qurumun rəhbəri kimi onun mətbuat xidmətinin rəhbəri də sadəcə savadsızdır. Əlbəttə, biz millət vəkili kimi öz seçki dairəmizdə seçicilərin yaşadığı yerlərə baş çəkərkən piyada gəzirik və bunu həmişə zövqlə edirik. Ancaq yuxarıda da vurğuladığım kimi, bəndəniz piyadaların soyulmasından deyil, bilavasitə avtomobilini idarə edən sürücülərin soyulmasından bəhs etmiş. Yəni piyada gəzməklə mənim müşahidə obyektimin nə olacağına hansısa aydınlıq gətirilməmiş. Demək ki, tövsiyənin bu hissəsində piyada hərəkət deyil, özümün şəhərdə müşahidə aparmaq üçün şəxsən avtomobili idarə etməyim təklif oluna bilərdi. O isə hər kəs bilir ki, mənim, ümumiyyətlə sürücüm yoxdur və şəhərdə avtomobilimi özüm idarə etdiyimdən sürücülərin BNA soyğunçularının əlindən nələr çəkdiyini çox yaxşı bilirəm. İkinci tövsiyəyə gəldikdə isə burada da hökmən dəqiqləşdirilmə aparılmalıydı. Ümumi şəkildə ictimai nəqliyyatla hərəkətdən söhbət gedib, ancaq bilmək istərdim ki, metro ilə getməliyəm, yoxsa avtobusla? Fərq ondadır ki, metrodakı tunellərdə soyğunçuluğu həyata keçirmək üçün praktik imkan olmadığına görə burada BNA ilə hansısa anlaşılmazlığımız ola bilməz. İşdir, əgər avtobusla hərəkətimiz nəzərdə tutulursa, avtobusa kəsilən cərimənin sərnişin statusunda mənə nə aidiyyəti olacaqdır, doğrusu, bunu aydınlaşdırmaq xeyli çətindir. Bax budur, sadə bir cümləni qura bilməyənlər bir yerə yığışıb Bakı nəqliyyatını da beləcə iflic vəziyyətə salıblar. Mətbuat xidməti rəhbərinin bu tövsiyəsinin etik tərəfinə gəlincə, açığı anlaşılan budur ki, vətəndaşların kütləvi soyulması hesabına yığılan cərimələrin əhəmiyyətli hissəsi bu qurumun hesabına keçirilir. Demək onların vətəndaşı ölkə rəhbərliyindən narazı salmağından bircə kəlmə də olsun danışılmamış. Açığı burada hiyləgər gedişi etiraf etmək lazımdır. Ancaq hiyləgər olmaq hələ ağıllı olmaq mənasına gəlmir. Ölkə prezidentinin vətəndaşa layiqli xidmət etmək niyyəti ilə yaratdığı BNA-nı Bakı Nəqliyyat Soyğunçuluğu Agentliyinə çevirdiyiniz üçün vətəndaşların məhkəmələrə kütləvi şikayətləri başlasa və sizlərə qarşı vurulmuş

**Mais Ağayev: "Bir millət vəkilinin ona mandat verən vətəndaşların rahatlığı üçün yaradılan şəraitə qarşı çıxması, məqsədli şəkildə tənqid etməsi təəccüb doğurur"**



ki, nə qədər vətəndaşın boğazından kəsilən pul çox olarsa, bu qurum və onun rəhbəri daha çox varlanacaq. İndi bir az yoxsuldurlar deyə, səsləndirilən iradlara doğru-dürüst izah vermək yerinə hələ ki, bir millət vəkilinə piyada gəzməyi tövsiyə edirlər, ardınca digər millət vəkillərinə bu tövsiyə ediləcək, daha da varlanandan sonra nazirlərə və daha yuxarılara piyada gəzməyi tövsiyə edəcəklər. Bu qurumun belə bir iddialı rəhbəri bu minvalla 2025-ci ildə özünün prezidentliyə namizədliyini versə qətiyyən təəccüblənmərəm. Burada da özlərini dolaşdırdıqlarının fərqində deyillər. Hamı piyada gəzməyə başlasa, əcəba indiyə qədər etdikləri görməmişliyi indi də piyadalardan cərimə pulu yığmaqlamı davam etdirəcəklər?

BNA adından verilən uğursuz açıqlamada diqqət çəkən əsas məqam isə başqadır. Bu açıqlamada hər şeydən danışılmış, "ağıllı" tövsiyələr verilmiş, ancaq vətəndaşları zinhara gətirmiş cərimələrdən, onların əsassızlığından, mənəvi və maddi ziyana görə kompensasiya tələbləri çoxalsa, əmin olun ki, Kürdəxanıda korrupsioner dostlarınızın yanına hansı formada getməyi millət vəkilləri hamınıza dəqiqliklə tövsiyə edəcəklər.

**BNA-nın mətbuat katibi Mais Ağayev millət vəkilinin açıqladığı faktlar barədə fikir bildirib:** "Milli Məclisin üzvü, millət vəkili Fazil Mustafanın informasiya saytlarından birinə verdiyi müsahibə zamanı BNA barədə səsləndirdiyi qərəzli və subyektiv fikirlər təəssüf doğurur. Bu cür əsassız fikirlər dövlət başçısının tapşırığına əsasən vətəndaşların rahatlığı üçün şəhər nəqliyyat sistemində görülən tədbirlərə kölgə salır, ictimaiyyətdə çaşqınlıq yaradaraq şübhə altına alır.

Deputat açıqlamasında BNA-nın ünvanına açıq ittiham irəli sürüb ki, bu da ağ yalandır və həqiqəti əks etdirmir.

Millət vəkilinin avtobus zolaqlarına qarşı səsləndirdiyi fikirlər isə ümumiyyətlə heç bir məntiqə sığmır. Bu zolaqların təşkilində məqsəd gündəlik ictimai nəqliyyat istifadəçisi olan və sayı iki milyondan artıq olan insanların hərəkət imkanlarını asanlaşdırmaqdır. Onların rahat, maneəsiz və təhlükəsiz gediş-gəlişini təmin etməkdir. Bu səbəbdən də bir millət vəkilinin ona mandat verən vətəndaşların rahatlığı üçün yaradılan şəraitə qarşı çıxması, məqsədli şəkildə tənqid etməsi təəccüb doğurur.

Avtomobil sürücüləri ilə müqayisədə hərəkət iştirakçıları arasında ictimai nəqliyyat istifadəçiləri əsas üstünlüyə malikdirlər. Onların rahatlığını təmin etmək də daim dövlətin diqqət mərkəzindədir. Dövlət başçısının tapşırığı ilə son beş ildə Bakı şəhərinin avtobus parkının həmçinin ictimai nəqliyyat infrastrukturunun müasirləşməsinə sərmayə qoyulması da bu diqqətin bariz nümunəsidir.

Millət vəkilinə şəhərdə piyada gəzməyi və ya ictimai nəqliyyatdan istifadə etməyi tövsiyə edirik. Yalnız bu halda Fazil Mustafa ötən beş ildə şəhər nəqliyyatının ayrı-ayrı istiqamətləri üzrə görülən infrastruktur işlərinin əyani şahidi ola bilər.

BNA vətəndaşların rahatlığı üçün həyata keçirilən layihələr, onların müsbət təsirləri ilə bağlı davamlı maarifləndirmə və məlumatlandırma işləri aparır. Bunu nəzərə alaraq icra olunan layihələr, beynəlxalq təcrübədə bu işlərin hansı formada əksini tapması, ən əsası vətəndaşlarımızın bu işlərdən hansı formada bəhrələnəcəyi barədə millət vəkili, eləcə də digər maraqlı şəxslərə təqdimatlar etməyə və onlarla açıq müzakirələrə də hazır olduğumuzu qeyd edirik".

**Millət vəkili Etibar Əliyev həmkarının fikirləri ilə razılaşdığını, BNA rəsmisinin gülüş doğuran açıqlama verdiyini söyləyib:** "Fazil Mustafanın "BNA qədər vətəndaşı soyan ikinci bir qurum yoxdur. Bu qurum şəhərdə lazımi infrastruktur yaratmayıb, yolun yarısını avtobuslar üçün nəzərdə tutub, amma vətəndaş tıxacda qalır. Necə yəni, onların vaxtı dəyərli deyil? Sən vətəndaşa münasib yol yaratmamısansa, niyə ondan cərimə pulu alırsan?" fikirlərinə Agentliyin mətbuat xidmətinin rəhbəri Mais Ağayev heç bir əndazəyə sığmayan şəkildə cavab verib. İnanmıram ki, kimsə bu qurumun fəaliyyətindən razı qalsın. Fərz edək ki, biri özünü pis hiss edir, qan təzyiqi yüksəlib. Adam bunların qorxusundan aptekin yanında maşın saxlayıb, dərman ala bilməz. Avtobusların hərəkətinə gəldikdə isə bunun üçün uzağa getməyə ehtiyac yoxdur. "20 yanvar", "Neftçilər" metrosunun ətrafı, Sabunçu və Suraxanı rayonlarındakı acınacaqlı və xaotik vəziyyəti müşahidə etmək kifayətdir. Millət vəkilinə şəhərdə piyada gəzməyi tövsiyə edən mətbuat katibinin özü bunu edibmi? Etsəydi, vəziyyəti görərdi və belə kobud cavab verməzdi. İnsanların hərəkəti üçün səkilər yoxdur. Səkilərdə maşınlar park edirlər. Maşınların arasından keçmək mümkün olmadığından vətəndaş asfalta düşür və bunun nə qədər təhlükəli olduğunu yəqin ki, Mais Ağayev bilmir".

**Yeganə Bayramova**



## “Yanğınların fərqli yerlərdə baş verməsi..."

Timuçin Kodaman: “...Təxribat ehtimalını da gündəmə gətirir”

**”May-dekabr ayları Türkiyə üçün yanğın sezonu hesab olunur. İl ərzində təxminən 2350 yanğın 10 min hektar ərazini əhatə edir”.**

Bu sözləri qardaş ölkədəki yanğınlar barədə ”Şərq”ə danışan türkiyəli beynəlxalq münasibətlər üzrə ekspert Timuçin Kodaman deyib. O, həmçinin provokasiya ehtimalını istisna etmədiyini bildirib: ”Son 10-15 gündə yüzdən çox yanğın olub. Küləkli hava şəraiti yanğınları bir az da şiddətləndirir. Hava temperaturunun 40 dərəcədən çox olması da yanğınlara rəvac verir. Amma hadisələrin fərqli yerlərdə baş verməsi təxribat ehtimalını da gündəmə gətirir. Düzdür, bu, hələlik sadəcə ehtimaldır və ortada konkret faktlar yoxdur. Ümid edək ki, yanğınlar təbii səbəbdən meydana çıxıb”.

**Kənan**

# Müdafiə və milli təhlükəsizlik xərcləri artıb





Üzeyir Cəfərov: “44 günlük müharibədən çıxan ölkə olduğumuz üçün müəyyən məsələlər həllini tapmalıdır”

**Bu ilin yanvar-iyun aylarında Azərbaycanın müdafiə və milli təhlükəsizlik üzrə xərcləri açıqlanıb. Bununla bağlı Maliyyə Nazirliyinin 2021-ci ilin dövlət büdcəsinin yanvar-iyun ayı üzrə icrasına dair yaydığı hesabatda bildirilir.**

Qeyd olunur ki, müdafiə və milli təhlükəsizlik xərcləri ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 milyard 76 milyon 300 min manat artaraq, 2 milyard 533 milyon 400 min manata çatıb.

**Müdafiə xərclərinin artımının hansı zərurətdən doğduğu barədə ”Şərq”ə danışan hərbi ekspert Üzeyir Cəfərov bildirib ki, ölkə başçısı hərbi sahəyə xüsusi diqqət ayırır:** ”44 günlük müharibədən çıxan ölkə olduğumuz üçün müəyyən məsələlər həllini tapmalıdır. Müharibə zamanı canlı qüvvəmiz və texnikalarımızı itirmişik. Müdafiə və təhlükəsizliklə bağlı xərclərimiz artıb. Ümumilikdə isə hərbi sahəyə diqqət və qayğı özünü müxtəlif formada göstərir. Bu, hərbi qulluqçuların aldığı məvaciblərdə, infrastrukturun yenilənməsi, azad edilən ərazilərdə modul tipli hərbi hissələrin tikilməsində özünü göstərir. Bütün bunlar ölkə başçısı tərəfindən nəzərə alınıb. Ona görə də hərbi xərclərimizin çoxalması tamamilə gözlənilən bir məqam idi. Ordumuzun 44 günlük Vətən savaşında ortaya qoyduğu nəticə göz qabağındadır. Ona görə də hərbi qüvvələrimiz güclü orduların siyahısında yer alır”.

**Ekspertin sözlərinə görə, cənab Prezident ordumuz üçün nə lazımdırsa edir:** ”Bunun üçün də dövlət büdcəsindən əlavə xərclər nəzərdə tutulub. Maliyyə Nazirliyi tərəfindən həm Azərbaycan Ordusu, həm də silahlı qüvvələrimizin ayrı-ayrı qoşun növləri xidmətlərinə vəsaitlər ayrılır. Demək olar ki, mütəmadi olaraq müxtəlif hərbi şəhərciklərdə yeni infrastrukturun inkişafını görürük. Bu proses davamlıdır. Məlumdur ki, mütəmadi olaraq hərbi təlimlərimiz də baş tutur. Hər kəs bilir ki, hərbi təlimlər kifayət qədər vəsait tələb edir. Çünki şəxsi heyətin qidalanmasından tutmuş digər xərcləri önəmlidir. Hərbi qulluqçuların statusu haqqında qəbul olunacaq yeni qanunda da bir sıra məsələlər nəzərdə tutulur. Bu da hərbi qulluqçuların özləri və ailə üzvlərinin təminatının yaxşılaşdırılması ilə bağlıdır. Eyni zamanda müasir silah və texnologiyalar da alınacaq. Bütün bunlar da müdafiə sahəsindəki xərclərimiz sırasındadır”.

**Yeganə Bayramova**

# Ənənəvi təhsilə qayıtmaqdan danışmaq hələ tezdir



## Yoluxma sayının artdığı vəziyyətlərdə hər hansı bir proqnoz vermək geniş ictimaiyyət arasında çaşqınlıq yarada bilər

"Yeni dərs ili ilə bağlı istər valideynlərin narahatlığı, istərsə də medianın vəziyyətin araşdırılmasına olan marağı nə dərəcədə başadüşülən olsa da, bu kimi vəziyyətlərdə ehtimallara əsaslanan proqnozlar vermək, müxtəlif şayiələrə əsaslanan xəbərlər yaymaq geniş ictimaiyyət arasında çaşqınlıq yarada bilər. Hesab edirəm ki, yeni dərs ilinin hansı formada başlanacağı barədə bəri başdan konkret fikir söyləmək hələ tezdir. Hər şey sərt karantin qaydalarına qayıdılacağı və ya yumşalmaya gediləcəyi ilə bağlıdır ki, bu da çox yəqin ki, vaksinasiya göstəricilərinə əsasən tənzimlənəcək".

Bu barədə təhsil üzrə ekspert, Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü Nadir İsrafilov deyib. Ekspert bildirib ki, belə vəziyyətlərdə hər hansı bir proqnoz vermək geniş ictimaiyyət arasında çaşqınlıq yarada bilər: ”Yeni dərs ili yaxınlaşdıqca, tədris ilinin nə vaxt və hansı formada başlanacağı ilə əlaqədar yazılı və elektron mediada müxtəlif məlumatlar yayılır, ”sentyabr ayında həm orta məktəblərdə, həm kolleclərdə, həm də universitetlərdə ənənəvi tədris tam şəkildə bərpa olunacaq” kimi açıqlamalar verilir, ”ənənəvi təhsilin sentyabrın 15-dən deyil, oktyabrın 1-dən başlanması nəzərdə tutulur”, ”valideynləri koronavirus əleyhinə peyvənd olunmayan şagirdlər məktəbə buraxılmayacaq” kimi xəbərlər yayılır, nazirlik bununla bağlı hələ də rəsmi məlumat verməməkdə günahlandırılır. Baxmayaraq ki, Təhsil Nazirliyindən bildirilib ki, növbəti tədris ili üçün pandemiya şəraitində tədrisin təşkili ilə bağlı müxtəlif ölkələrin təcrübəsi araşdırılır və burada əsas məqsəd ənənəvi təhsilə qayıtmaq imkanlarını öyrənməkdir”.

**N.İsrafilov diqqətə çatdırıb k ki, ənənəvi təhsilə qayıtmağın yolu vaksinasiyadır:** ”Pandemiya dövründə təhsilin fundamental məqsəd və vəzifələri prinsipcə dəyişməyib: ”Əsas məsələ də budur. Bacardıqca daha çox insan üçün keyfiyyətli təhsil təmin edilməlidir. Çalışmalıyıq ki, sosial-iqtisadi və digər amillər şagirdlərin təhsil almalarına təsir göstərməsin. Əlbəttə, böyük əksəriyyət kimi mənim də arzum həyatın öz əvvəlki axarına düşməsi, yeni tədris ilinə ənənəvi formada başlanılmasıdır. Bununla belə istəsək də, istəməsək də, gerçəkliklə hesablaşmaq zorundayıq. Yeganə deyəcəyim o ola bilər ki, arzularınız və arzularımız çin olsun”.

**Aynurə Pənahqızı**

## Ağdama səfər turları çox gözəl təşəbbüsdür

Rey Kərimoğlu: “Ümid edirəm ki, ödəniş də elə böyük olmayacaq”



**Yaxın vaxtlarda Ağdam sakinləri üçün Ağdama səfərlər təşkil olunacaq. Bunu Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev deyib. Onun sözlərinə görə, bu turlar ödənişli olacaq, lakin qiymətlər minimaldır:**

”Agentliyin əməkdaşları azad olunmuş ərazilərə tez-tez gedir və tədqiqatlar aparırlar. Həmin ərazilərə turları təşkil edərkən ilk növbədə mütləq şəkildə təhlükəsizlik təmin edilməlidir. Buna görə qaydalar, marşrut tam müəyyənləşdikdə Ağdam sakinlərini öz doğma torpaqlarına aparmağı düşünürük. Güman edirik ki, bu, payız aylarında baş tutacaq”.

**Ağdama səfərlərin təşkili ilə bağlı qazi, hərbi jurnalist Rey Kərimoğlu ”Şərq”ə deyib ki, bu addım çox təqdirəlayiqdir:** ”Bu, həqiqətən də çox gözəl təşəbbüsdür. Çünki vətəndaşlarımız neçə müddətdir ki, öz doğma torpaqlarını, yurd-yuvalarını görmək istəyir. İnanıram ki, yaxın müddətdə tək Ağdama yox, Qubadlıya, Zəngilana, Şuşaya, Cəbrayıla, Füzuliyə, Laçına, Kəlbəcərə gedəcəyik. Ümid edirəm ki, ödəniş də elə böyük olmayacaq. Yəqin ki, orda təhlükəsizlik qaydaları da nəzərə alınacaq. Çünki mən özüm üç dəfə dövlət xətti ilə Ağdamda olmuşam. Hamısında da polisin, ANAMA-nın müşayiəti ilə getmişik. Hər halda bu, illərdi yurdunu görməyə hazırlaşan vətəndaşlarımız üçün bir təsellidir”.

**Aynurə**

# Yeni müharibəyə hazır olmalıyıq

## Sülh müqaviləsi heç üfüqdə belə görünmür



*“Əgər yaxın perspektivdə Laçın dəhlizinə nəzarət etməsək, bundan sonra ermənilər rahat şəkildə Qarabağa hərbi texnika yığacaqlar və Azərbaycana qarşı silahlanacaqlar”*

"Ermənistan və Azərbaycan arasında imzalanan üçtərəfli razılaşmalara əsasən moderator olaraq Rusiya 10 noyabr Birgə Bəyannaməsinin öhdəliklərinin yerinə yetirilməsini təmin etməlidir. Amma Rusiya tərəfi demək olar ki, Qarabağda məsuliyyət zonasında militarist siyasət aparır. Qarabağda erməni silahlı birləşmələri qalmaqda, hətta Rusiya hərbiçiləri mövcud qaydalara zidd olaraq artilleriya vasitələrindən istifadə edərək təlimlər keçirir. Bundan əlavə, artıq Ermənistan tərəfi Qarabağa zirehli texnika və artilleriya vasitələri göndərir. Mühəndis-istehkam işləri aparılır".

Bu sözləri ”Şərq”ə açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib. O bildirib ki, Rusiya sülhməramlı qüvvələri artıq Qarabağda sülh üçün deyil, erməni separatçılarını qorumaq və Qarabağın ermənilər yaşayan ərazisində hərbi istehkam qala formalaşdırır: ”Qarabağda Rusiyanın apardığı proseslərdən aydın olur ki, 10 noyabr birgə bəyannaməsinin 4-cü və 7-ci bəndləri yerinə yetirilməyəcək. Silahlı erməni birləşmələri Qarabağda qalır və azərbaycanlıların Xankəndi, Ağdərə və digər yaşayış məntəqələrinə qayıtması mümkün olmayacaq. Nəzərə alaq ki, Şuşaya çəkilən Zəfər yolu və Laçın dəhlizindən yeni bir yolun çəkilməsi ilə ermənilərlə üzbəüz gəlməyəcəyik və ermənilərin yaşadığı ərazilərdən keçməyəcəyik, eyni zamanda Rusiya ”sülhməramlı” adlanan hərbiçiləri ilə qarşılaşmayacağıq.

Politoloqun sözlərinə görə 10 noyabr Birgə Bəyannaməsini Rusiya və Ermənistan sabotaj edir: ”Rusiya problemi körükləyir və ermənilərdən növbəti mərhələdə Azərbaycana qarşı təxribatlarda istifadə edəcək. Azərbaycanın Türkiyə ilə Şuşa Bəyannaməsi imzalaması, Rusiyanı Qarabağda daha da aqressiv bir siyasət ortaya qoymağa sövq edib. Demək olar ki, hər gün Laçın dəhlizindən Qarabağa silah-sursart və artilleriya vasitələri daşınır. Artıq Rusiya hərbiçiləri Laçın dəhlizində və Qarabağda Azərbaycanın təhlükəsizliyini təhdid edir. Ümumiyyətlə, Qarabağdakı ermənilərin Azərbaycana reinteqrasiyasına Rusiya imkan verməyəcək”.

*M.Əsədullazadə qeyd edib ki, Rusiya hərbiçilərinin nəzarət etdiyi ərazilərdə erməni silahlı birləşmələrinin qalması, Ermənistanın Azərbaycanla mümkün razılaşmalara getməməsi, lokal hərbi əməliyyatların Azərbaycan tərəfindən başlanmasına rəvac verə bilər:* ”Vəziyyət mürəkkəb olaraq qalır. Azərbaycanın bir çıxış yolu var. O da Qarabağdan Rusiya hərbiçilərinin çıxarılmasıdır. Demək olar ki, Rusiya tərəfi öhdəliklərə əməl etməyəcək. Bir neçə ildən sonra biz yenidən Qarabağda ermənilərlə növbəti müharibəyə hazır olmalıyıq. Əgər Ermənistanla sülh müqaviləsi bağlanacaqsa, bu müharibə olmayacaq. Ermənistanla sülh müqaviləsinin bağlanması isə heç üfüqdə belə görünmür. Rusiya Azərbaycan və Ermənistan arasında sülhün əldə edilməsini öz regional siyasətinə təhdid hesab edir. Əgər yaxın perspektivdə Laçın dəhlizinə nəzarət etməsək, bundan sonra ermənilər rahat şəkildə Qarabağa hərbi texnika yığacaqlar və Azərbaycana qarşı silahlanacaqlar. Rusiya hərbiçiləri də onlara bütün dəstəyi verəcək. Ona görə də Azərbaycan nə olursa olsun Laçın dəhlizinə nəzarət etməlidir. Azərbaycanın əsas strateji planı Laçın dəhlizinə nəzarəti bərpa etmək olmalıdır. Əks təqdirdə yeni müharibəyə hazır olmalıyıq”.

**Aynurə Pənahqızı**



## 12 nəfər vəfat edib

### Yoluxanların sayı 1700-ü keçdi

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 1 736 yeni yoluxma faktı qeydə alınıb, 435 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 9 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 354662 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 335771 nəfər müalicə olunaraq sağalıb, 5084 nəfər vəfat edib, aktiv xəstə sayı 13807 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 10081, ötən müddət ərzində isə ümumilikdə 4133796 test aparılıb.*

## Sumqayıtda dənizkənarı parkda asılmış vəziyyətdə kişi meyiti tapıldı



**Sumqayıt şəhərində dənizkənarı parkda kişi meyiti tapılıb.**

APA bildirir ki, hadisə şəhərin Nəsimi adına Mədəniyyət və İstirahət Parkında qeydə alınıb. Park ərazisində ağacdan asılı vəziyyətdə olan kişi meyiti aşkarlanıb. Hələlik kimliyi məlum olmayan 40-45 yaşlarında olan kişinin intihar etdiyi bildirilir. Meyit aidiyyatı üzrə təhvil verilib.

# "Ruslar Qazaxla sərhəddə başımızı ağrıda bilər"

Rusiyalı hərbçilərin Qazaxa yerləşdirilməsi ilə bağlı münasibətlər birmənalı deyil.

Təxribatların davam etdiyi, təmasların səngimədiyi bir vaxtda bunu zəruri edən nədir? Maraqlıdır, "sular bulanır", yoxsa "başmaq toxunur?"



**Əziz Əlibəyli:**
*“Rus hərbçilərinin Qazaxa yerləşdirilməsi təhlükəsizlik tədbirləridir”*

**Timuçin Kodaman:**
*“Rus hərbçilərinin sayı nə qədər çox olacaqsa, problem də bir o qədər böyük olacaq”*



Bəziləri bunu işğal altında olan yeddi kəndimizin qaytarılması istiqamətində atılan addım kimi qiymətləndirirsə, digər ekspert qrupunun fikrincə Qazaxdakı hərbçilər rəsmi Bakı üçün daha çətin vəziyyət yarada bilərlər.

**Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli bu barədə ”Şərq”ə deyib ki, yəqin rusların sərhəddə gətirilməsinə Azərbaycanın icazəsi var:** ”Əks halda belə addım atıla bilməzdi. Çünki Qazax beynəlxalq hüquqi normalara görə, Azərbaycanın tanınmış ərazisidir. İkinci bir tərəfdən, orada Ermənistanın iddia etdiyi qədər çox rus hərbçisi yoxdur. Bu, ona deməyə əsas verir ki, indi keçid dönəmidir və rus hərbçilərinin Qazaxa yerləşdirilməsi təhlükəsizlik tədbirləridir”.

**Türkiyəli beynəlxalq münasibətlər üzrə ekspert Timuçin Kodamanın fikrincə, rusların sərhəddə daşınmasında ehtiyatlı davranmalıyıq:** ”Rusiya son 500 ildir ki, ərazilərini genişləndirmək istəyir. Həmçinin Qara dənizdə, Xəzər dənizində, Aralıq və Baltik dənizlərində söz sahibi olmağa çalışır. Müharibədən sonra Qarabağa rus qoşunları yerləşdirildi. İndi isə Qazaxa gəlirlər. Bu, ”başımızı ağrıda”, ciddi problem yarada bilər. Qazaxda rus hərbçilərinin sayı nə qədər çox olacaqsa, problem də bir o qədər böyük olacaq”.

**Ekspertin sözlərinə görə, hərbi əməliyyatların bərpası qaçılmazdır:**

”Bu məsələni Moskva ilə danışaraq həll etmək çətindir. Düzdür, müharibədə Azərbaycan böyük qələbə qazandı. Lakin işimiz hələ tam bitməyib. Bütün xarici qüvvələr Azərbaycan ərazisindən, o cümlədən Qarabağdan çıxarıldıqdan sonra tam rahat ola bilərik. Bunun üçün isə Qarabağda üçüncü savaşın başlanacağını düşünürəm. Əks halda çətin olacaq”.

**Kənan**

# Hamı Saturnu görməyə gəlib



## Sıranın ucu-bucağı görünmür

### “Şərq”in əməkdaşı Şamaxı rəsədxanasından reportaj hazırlayıb

Bu günlərdə iki günlük istirahətdən istifadə edib Şamaxıya, Pirquluya getdim. Səfər normal, sıradan yolçuluqlardan biri idi. Lakin məhz Nəsrəddin Tusi adına Şamaxı rəsədxanasında gördüklərimdən sonra reportaj yazmağı qərara aldım.

Əlbəttə, Şamaxıya gedib, rəsədxanaya baş çəkməmək doğru olmazdı. Düzü, belə bir fikrim yox idi. Sadəcə, restoranların birindəykən yan masadakı kişinin yoldaşlarına dediyi "Mən artıq qalxım, axşam müşahidəm var" sözləri diqqətimi çəkdi. Şübhəsiz ki, söhbət səmanı müşahidədən gedirdi.

Beləliklə, yerli vətəndaşlardan rəsədxanaya nə vaxt getmək lazım olduğunu öyrənirəm. Uyğun zamanın saat 23 olduğunu deyirlər. Çünki qaranlıq düşməlidir. Ovaxtadək birtəhər başımı qatıram.

Görəcəklərim isə məni səbirsizləndirir... Axı həmişə digər planetlərdə də həyatın olub-olmaması barədə fikirlər eşidirik. İndi, nəhayət, onlardan heç olmasa, bir neçəsini görə biləcəm.

11-ə qalmış rəsədxananın həyətində oluram. Xeyli adam var. Sıranın ucu-bucağı görünmür. Görünür, kəhkəşan çoxlarına maraqlıdır. 50 yaşlarındakı bir kişi irəli keçir. Özünü təqdim edir. İlk baxışdan insanda xoş təəssürat yaradan İbrahim Hüseynov rəsədxananın ümumi işlər üzrə direktor müavinidir. Onun sözlərinə görə, indi ancaq Saturnu izləyə biləcəyik. Yupiteri isə saat birdən sonra müşahidə etmək mümkündür. Qısa məlumatdan sonra qapı açılır. İnsanlar təxminən 8-10 nəfər olmaqla içəri buraxılır. Qapıda dayanan nəzarətçilər sıxlığın yaranmamasına xüsusi nəzarət edirlər. Bu həm də yayılmaqda davam edən, necə deyərlər, bizə gün verib, işıq verməyən koronavirus pandemiyası ilə əlaqəlidir. Hər halda kimsə "qaş düzəltdiyi yerdə göz çıxarmaq" istəməz...

Növbədə dayanan digərləri kimi mən də səbirsizlənirəm. Ümumiyyətlə, heç vaxt gözləməyi sevməmişəm. Elə indi də bəzən çıxıb getmək barədə düşünürəm. Görəcəklərim nə qədər qeyri-adi ola bilər?.. Qəribədir, hər dəfə arxamdakılardan icazə alıb geri dönmək istəyəndə içəridən kimlərsə çıxır, sıra bir az da irəli gedir və növbəm bir az da yaxınlaşır.

Rəsədxanadan çıxanlar dərhal öz təəssüratlarını bölüşürlər. Bir kişi əlini göydəki ulduzlara tutaraq and-aman edir: "Onları necə görürsünüzsə, teleskopla da belə görünür...".

Məndən arxada dayanan gənclər tədricən hövsələdən çıxırlar. Bu, açıq-aydın sezilir. Biri zarafatla digərinə deyir: "Camaat içəridə bu qədər neyniyir axı? Baxdın, gördün, çıx da... Heç Nəsrəddin Tusi bu qədər çox müşahidə etmirdi, bəlkə...". Qeyri-iradi mənim də dodağım qaçır, gülümsəyirəm.

Vaxtımı keçirməkdən ötrü telefonda qeydlər edirəm. Çox keçmir ki, dolu bir qadın insanları itələyə-itələyə içəri keçir. Özü də növbə gözləmədən. Üstəlik, bu azmış kimi sıranı da pozur. Baxan elə bilər ki, Saturna bilet alıb və təyyarə bu dəqiqə havaya qalxacaq. Gülməli gəlsə də, qadının hərəkətinə ancaq belə məntiqli izah vermək mümkündür. Daha gülməlisi isə cəmi on dəqiqə sonra həmin qadının dodaqaltı gileylənə-gileylənə çölə çıxmasıdır: "Noxud boyda şey görünür...". Adama sual verərlər: nə gözləyirdin?

Növbəti epizodda özümü saxlaya bilməyib əməlli-başlı gülürəm. Bir kişi yenə and-aman eləyə-eləyə çölə çıxır. Bilmirsən məqsədi nədir. Elə bu vaxt növbədə gözləyənlərdən birinin ritorik sualı mənim kimi çoxlarının da "ürəyindən tikan çıxarır": "Bilsəydiz getməzdiz, eləmi?". Yəni özün gördün, oldu, yaxşı. Di, başqalarını həvəsdən salma. Görünür, kişi ironiyanı başa düşmür və yenə də nəsə nəsə danışa-danışa izdihamı yarıb, gözdən itir.

## Gənclər hövsələdən çıxır: “Heç Nəsrəddin Tusi bu qədər çox müşahidə etmirdi, bəlkə...”



... Nəhayət, növbə mənə çatır. 6-7 nəfərlə birlikdə içəri keçir və ensiz pilləkənlərlə yuxarı - ikinci mərtəbəyə qalxıram. Mühafizə əməkdaşı tibbi maskalarımızı taxmağı xahiş edir. Hər kəs bunu anlayışla qəbul edir. Bələdçi əvvəlcə bizə müşahidə edəcəyimiz planet haqqında məlumat verir: "Günəş sistemində Yupiterdən sonra ən böyük ikinci, Günəşdən məsafəsinə görə altıncı planetdir. Radiusu Yerin radiusundan doqquz dəfəyədək böyükdür. Həcmi isə bizim planetdən 95 dəfə çoxdur...".

Teleskopdan istifadə qaydasını izah etdikdən sonra bir-bir aparatın arxasına keçirik. Planeti fərqli məsafələrdən göstərən hər iki "gözlük"dən baxıram. Doğrudur, o qədər də böyük görünmür. Lakin, əlbəttə, bundan artığını gözləmək də doğru olmazdı. Saturnda meşə, çay, dərə-təpə...axtarası deyilik ki...Öz-özümə düşünürəm ki, görəsən, orada həyat varmı? Nə bilmək olar. Yoldaşlardan biri ilə nə vaxtsa aramızda olan söhbəti xatırlayıram. "Mən aydan gəlmişəm..." demişdi. Əlbəttə, bu, sadəcə zarafat idi. Amma hamının istəyəndə gedəcəyi bir başqa planet olsa, yaxşı olmazdımı? Həm də nə bilmək olar, bəlkə də, Hötenin dediyi kimidir: bu dünya başqa bir planetin cəhənnəmidir.



**Üç dəqiqə keçmir ki, nərdivandan düşürəm. Yenidən pilləkənlərlə aşağı enir və həyətə çıxıram. Təsadüfən rəsədxanın direktoru professor Namiq Cəlilovla rastlaşıram. Əvvəllər bir neçə dəfə gördüyümə görə tanıyıram. Özümü təqdim edir, jurnalist olduğumu deyirəm. O da öz növbəsində mənə rəsədxana haqqında məlumat verir:**

"1959-cu ildə yaradılıb. Ondan altı il əvvəl isə burada müşahidə bazası qurulub. Şamaxı Astrofizika Rəsədxanasında yetişmiş alim və mütəxəssislər bu gün dünyanın bir çox ölkələrinin, o cümlədən ABŞ, İsrail, Ukrayna, Rusiya, Türkiyənin elmi müəssisələrində fəaliyyətlərini uğurla davam etdirirlər. Şamaxı Astrofizika Rəsədxanasında bir sıra beynəlxalq və respublika səviyyəli simpozium və konfranslar keçirilib. Bunların arasında Beynəlxalq Astronavtika Federasiyasının konqresini (1972), maqnit ulduzların tədqiqinə həsr olunmuş konfranslar (1973, 1976), SSRİ EA Astronomiya Şurasının plenumu (1984), "Tusi-800" Məclisləri (1998-2002-ci illər ərzində 8 konfrans), "Dövrülük və kosmoloji problemlər" (2003), "ŞAR-ın əsasının qoyulmasının 60 illiyinə həsr olunmuş Beynəlxalq konfrans" (2013) və başqalarını göstərmək olar. ŞAR-ın fəaliyyəti dövründə rəsədxana əməkdaşları bir sıra aktual mövzular üzrə xarici ölkələrin astronomları ilə birgə işlər yerinə yetirib. Günəş fizikası və Günəş-Yer problemi üzrə Rusiya, Almaniya, İsrail, Bolqarıstan, Gürcüstan və s. ölkələrin ayrı-ayrı astronomik təşkilatları ilə sıx əməkdaşlıq edilir. Ulduz fizikası istiqaməti üzrə Rusiyanın bir neçə rəsədxanasının əməkdaşları ilə birgə tədqiqatlar aparılır (Rusiya EA XAR, Moskva DU-nun Şternberq ad. Dövlət Astronomiya İnstitutu, Sankt-Peterburq DU və s.).

Komet və meteorların tədqiqi üzrə Rusiya, Ukrayna, Tacikistan və s. ölkələrin astronomları ilə birgə işlər həyata keçirilir. ŞAR əməkdaşları xarici dövlətlərdə keçirilən konqres, simpozium və konfransların işində ardıcıl və fəal iştirak edir, dünya astronomlarını rəsədxanada aparılan işlər barədə məlumatlandırırlar".

*...Ətrafdakılar maraqla mənə baxır, təəssüratlarımı bölüşməyimi gözləyirlər. Lakin heç nə demirəm. Məşhur yazıçı Antuan de Sent-Ekzüperinin "Balaca şahzadə" əsərindəki sitat yadıma düşür: "Yəqin, ulduzlar ona görə parıldayır ki, hər kəs əvvəl-axır özününkünü tapa bilsin". Deməli, sadəcə baxmaq yox, həm də görmək lazımdır. Mən Saturna baxdım.*

*Gördüyüm isə daha çoxu oldu:*

"Demə, hər kəsin bir mümkünsüzü, əlçatmazı var...". Yenə də "Balaca şahzadə"də deyildiyi kimi, sənin sevdiyin yeganə çiçək milyonlarla ulduzun heç birində yoxdur. Bu kifayət edər ki, göyə baxıb xoşbəxt olasan..." .

**Kənan Novruzov**



# Valideynlərin yükü ağırdır

## *Dəstək proqramı mütləq lazımdır*

Dərs ilinin başlanmasına hələ çox var. Valideyn qayğıları üçünsə zaman anlayışı, vaxt limiti yoxdur. Valideyn həmişə qayğılıdır. Xüsusilə də övladını məktəbə hazırlayanlar. Məlum məsələdir; uşağın məktəbli forması, ayaqqabısı, məktəbli çantası, dəftər-qələm... Hələ nə qədər əlavə xərclər lazım olur, kiçik, lakin vazkeşilməz hesab edilən ləvazimatlar üçün.

Su qabı, yemək qabı, qələm qabı, corabdan tutmuş, saç qısqacları, bantlara qədər. Eyvah... Nə qədər pul lazımdır. Hələ düşünün ki, bir evdən 1 deyil, 2, 3 uşaq məktəblidir. Dəhşət olar. Amma Rusiya hökuməti valideynləri məktəb bazarlığından qismən də olsa xilas etməyin yolunu tapıb. Rusiyada avqustun 16-dan başlayaraq məktəbli valideynləri yeni tədris ili ilə bağlı (orda dərslər sentyabrın 1-dən başlayır - red.) dövlətdən 10 min rubl məbləğində (təxminən 233 manat) birdəfəlik ödəniş alacaqlar. Bu barədə Milli.az Rusiya mediasına istinadən xəbər verib. Ödəniş 6-18 yaş arasında olan bütün şagirdlərə şamil ediləcək. Ödənişin verilməsində ailənin maliyyə imkanları nəzərə alınmayacaq. Yəni nəzərdə tutulan vəsaiti varlı da alacaq, kasıb da. Bundan başqa, yaşı 18-23 aralığında olan, ancaq əlilliyi olan məktəblilər də dəstəkdən yararlana biləcəklər. Təxmini hesablamalara görə, dəstək proqramı 20 milyon nəfərə yaxın

**Bir uşağın məktəb hazırlığına ortalama 250-300 manat sərf olunur**

şagirdi əhatə edəcək, vəsaitin ödənişi hökumətə 170 milyard rubla (4 milyard AZN) başa gələcək. Təsəvvür edək ki, Azərbaycanda da belə bir proqram icra olunur və 3 övladı təhsil alan ailəyə ümumilikdə 700 manat pul ödənilir. Bu məbləğ övladları məktəbə hazırlamaq üçün yetərli olarmı?

**İqtisadçı Nazim Bəydəmirli "Şərq"ə açıqlamasında qeyd edib ki, valideynlərə məlum dəstək proqramı Rusiyada illərdir icra olunur və bundan milyonlarla ailə faydalanır:**

- Ümumiyyətlə, pandemiya dövründə hər bir ölkə çalışdı ki, əhalisinə hansısa dərəcədə maddi yardım etsin. Müxtəlif sosial proqramlar icra olundu. Məlum məsələdir ki, pandemiya şəraitində işsizlik artdı, bir sıra iş yerləri qapandı və ailələr bundan zərər gördü. Əhaliyə yönəlik sosial proqramlarla bağlı çoxlu misallar, nümunələr çəkmək olar. Deyim ki, bəlkə də ən zəif sosial proqramlar Azərbaycan hökuməti tərəfindən icra olunub. Ölkələr var ki, məktəbəqədər yaşlı uşaqlar üçün, məktəb yaşlı uşaqlar, onların təhsili və tətili ilə bağlı xüsusi proqramlar icra ediblər. Bizdə bu proqramlar zəifdir. Ölkə əhalisinin sayı 10 milyon yarıma çatıb. Orta hesabla hər ailədə 1 nəfər işləyən şəxs varsa və yaşayış minimumu da rəsmi olaraq 206 manat hesablanırsa, məktəblilərin məktəb xərclərini ödəmək hökumət üçün prioritet olmalıdır. Çünki bir uşağın məktəb hazırlığına ortalama 250-300 manat sərf olunur. Dərs ili yaxınlaşdıqca məktəb ləvazimatlarının qiyməti də qalxır. Bildiyim qədər hazırda məktəblilərə yalnız dərsliklər pulsuz verilir. Bundan savayı məktəbliyə pulsuz, ödənişsiz, güzəştlə verilən başqa nəsə yoxdur. Belə hallar olur, bəzən, hansısa orta məktəbdə 1-cilərə məktəbli çantası, içində bir-iki dəftər-qələm hədiyyə edilir. Amma biz ümumilikdə tədris ili ərzində bir şagirdə çəkilən xərci, sərf olunan maddi vəsaiti əsas götürməliyik. Bu vəsait ortalama 250-300 manatdırsa, o deməkdir ki, valideyninin biri işləyən ailələr üçün məktəb hazırlığı əsl məşəqqətdir. Rusiya hökuməti 20 milyon nəfərə birdəfəlik maddi yardım göstərə bilirsə, iqtisadiyyatı güclü, gəlirləri də böyük olan Azərbaycan dövləti də bunu edə bilər. Yəqin ki, hökumətə bununla bağlı müraciət edilməlidir.

**Məlahət Rzayeva**



## "Toppuş bacı" yenidən xəstəxanaya yerləşdirildi

**Əməkdar artist Tünzalə Əliyeva yenidən xəstəxanaya yerləşdirilib.**

Xərçəngdən əziyyət çəkən aktrisa kimyaterapiya alacağını bildirib. "İllərdi 419-cu palataya gəlirəm. Bir ümidim var ki, sağalacam və sağalıram da. Gəlmələrimin sayını itirmişəm. Amma kimyaterapiya üçün artıq 25-ci dəfədir bu otaqda yenə qonağam. İnşallah bunu da birlikdə yenəcəyik" deyə, "Toppuş bacı" bildirib.

*Qeyd edək ki, "Toppuş bacı" ləqəbli aktrisa uzun müddətdir xərçəngdən əziyyət çəkir. Şiş əvvəl aktrisanın uşaqlıq yolunda idi. Daha sonra şiş sənətçinin böyrək damarlarına və ağciyərinə yayılmışdı.*

## Niyam vəsiyyətini açıqladı

### Müğənni anasının ayağının altında dəfn olunmasını istəyib



**Müğənni Niyam Salami vəsiyyət edib.**

Müğənni "Onun sirri" verilişinə açıqlamasında öləndən sonra onu anasının ayağının altında dəfn olunmasını istəyib:

"Tək yaşamaqdan qorxmuram. Allah məni əzabla öldürməsin. Nə qədər gülsəm də, danışsam da həyat mənim üçün sönüb. Nə yaxşı bacılarım, qardaşlarım olub. Tək qalanda özünə qapanırsan və heç kimin səndən xəbəri olmur ki, nə fikirləşirsən. Heç kimə deyə bilmərəm "Mən anamı çox istəyirəm". Hamı anasını sevir. O, Allahla sənin aranda olan bir şeydir. Yaxşı ki, ibadət edə bildim. Anam üçün dualar edirəm. Bilmirəm nə vaxta qədər gözüm quruyacaq, amma Allahdan arzum budur ki, anama qovuşa bilim. Ayağının altında da olsa, yer tapıb orada məni basdırsınlar".

# Toylar yoluxma sayının artmasına səbəb oldu

## *Əfsuslar olsun ki, heç də hər kəs qoyulan şərtlərə əməl etmir*

Son günlər ölkəmizdə koronavirusa yoluxma sayında kəskin artımlar baş verir. Artıq bir neçə gündür ki, yoluxanların sayı 1700-ü keçir. Ötən sutkada 1736 yeni yoluxma faktı qeydə alınıb, 12 nəfər COVID-19-dan dünyasını dəyişib.

Xəstəxanalara müraciət edənlərin, ağır vəziyyətdə reanimasiyaya düşənlərin, eyni zamanda, ölüm hallarının sayında ciddi artım müşahidə olunur. Maraqlıdır, belə davam edərsə, sərt qapanmalar ola bilərmi?

**"Hemofiliyalı Xəstələr" İctimai Birliyinin sədri Ayaz Hüseynov "Şərq"ə bildirib ki, Azərbaycan virusa yoluxanların müalicəsi ilə paralel həm də virus əleyhinə vaksinasiyanın tətbiqinə başlayan ilk dövlətlər sırasında oldu:**

"Vaksinasiyanın effekti bütün dünya üçün göz önündədir və dünya alimləri pandemiyadan yeganə çıxış yolunu məhz vaksinasiyada görürlər. Hazırda 18 yaşdan yuxarı bütün vətəndaşlar mütəşəkkil şəkildə heç bir ödəniş etmədən vaksinasiya oluna bilirlər. Bununla da vətəndaşlar həm özünü, həm də ətrafındakıları qorumuş olurlar".

Birlik sədri qeyd edib ki, hazırda bir çox ölkələr üçün vaksin əlçatmaz olaraq qalır və bu dönəmdə Azərbaycanda insanların rahatlıqla vaksinasiya oluna bilməsi dövlətimizin böyük uğurudur: "Koronavirusla mübarizədə görülən tədbirlərin nəticəsində Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı nümunə olaraq di-



gər dövlətlərə təqdim edir və bu, qürurverici bir haldır.

Dövlətimizin bu sahədə gördüyü işlər və məsuliyyətli vətəndaşların mövcud karantin qaydalarına əməl etməsi nəticəsində yoluxma sayı yay aylarının əvvəlində minimuma endi.

Nəticədə yoluxma sayının enməsi karantin qaydalarında yumşalmalara səbəb oldu. Amma əfsuslar olsun ki, əsasən də toy mərasimləri keçirilərkən heç də hər kəs qoyulan şərtlərə əməl etmir.

Ən əsas problemlərimizdən biri də toy mərasimlərinə yığışan qonaqların görüşərkən sıx təmasda olmalarıdır. Bu da virusun yayılmasına birbaşa zəmin yaradır. İnsanları da anlamaq mümkündür, artıq 1 ildən çoxdur ki, insanlar bir-birilərindən uzaq qaldılar. Buna baxmayaraq COVID-19 virusu ilə mübarizə ümummilli məsələdir və mövcud ağırlaşan durum insanların sağlamlığını ciddi təhlükəyə atır.

Riskləri nəzərə alaraq vətəndaşlara bir daha çağırış etmək istərdim ki, məsuliyyətli olsunlar, karantin qaydalarına əməl etsinlər və ən əsası vaksinasiya olunsular. Hazırda bizim yeganə çıxış yolumuz vaksinasiya və məsuliyyətdir. Əks halda karantin qaydalarının sərtləşməsi qaçılmaz ola bilər".

**Yeganə Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi**

# Sahibkarlara daha rahat imkan yaradılır

*Dəyişikliyin müsbət tərəfi odur ki, sahibkar bütün işlərini elektron kabinet üzərindən vaxta qənaət etməklə görə biləcək*

Prezident İlham Əliyev "e-KOB evi" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə fərman imzalayıb. Fərmana əsasən, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq "e-KOB evi" portalının (bundan sonra - portal) Elektron Hökumət İnformasiya Sisteminə (bundan sonra ? EHİS) inteqrasiyası ilə bağlı zəruri tədbirlər görməlidir.

İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi isə portalın formalaşdırılması və aparılması ilə bağlı zəruri tədbirlər görməli, dövlət orqanları (qurumları) tərəfindən kiçik və orta biznes evlərində göstərilən və Dövlət Xidmətlərinin Elektron Reyestrinə daxil edilmiş, habelə EHİS-ə inteqrasiya olunmuş elektron xidmətlərin, EHİS vasitəsilə portal üzərindən elektron formada göstərilməsini təmin etməli, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Xidməti ilə birlikdə portalın təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görməli, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birlikdə portalın "Hökumət buludu"na keçidinin təşkili ilə bağlı tədbirlər görməlidir. Dövlət

də tutulan sənədlər, ödəniləcək vergi və rüsumlar, hesabatlar, lisenziya və icazələr və s.) mərkəzləşdirilmiş qaydada əldə edilməsini asanlaşdırmaq məqsədilə "e-KOB evi" portalının (bundan sonra - portal) yaradılmasını, fəaliyyətini, portalda "Sahibkarın elektron kabineti" və "Biznes Naviqator" altsistemlərinin yaradılmasını, dövlət orqanları (qurumları) tərəfindən KOB evlərində göstərilən və Dövlət Xidmətlərinin Elektron Reyestrinə daxil edilmiş, habelə Elektron Hökumət İnformasiya Sisteminə (bundan sonra ?



orqanları (qurumları) isə Əsasnamənin 1.2-ci bəndinə uyğun olaraq məlumatların mərkəzləşdirilmiş qaydada əldə edilməsini və həmin Əsasnamənin 3.3-cü və 3.4-cü bəndlərində nəzərdə tutulan xidmətlərin bu Fərmanın 3.2-ci bəndinə uyğun olaraq göstərilməsini təmin etmək məqsədilə aidiyyəti dövlət informasiya ehtiyatlarının və sistemlərinin EHİS-ə inteqrasiyası üçün zəruri tədbirlər görməlidirlər.

Dövlət başçısının digər fərmanı ilə, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) Nizamnaməsində dəyişiklik edilib. Dəyişikliyə əsasən, Agentlik sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan məlumatların (sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün normativ hüquqi aktlarda nəzər-

EHİS) inteqrasiya olunmuş elektron xidmətlərin, EHİS vasitəsilə portal üzərindən elektron formada göstərilməsini təmin etməlidir.

İndiyə qədər KOBİA sadəcə "e-KOB evi" portalının (bundan sonra - portal) yaradılmasını, fəaliyyətini, portalda "Sahibkarın elektron kabineti" bölməsinin və "Elektron sahibkar" sisteminin yaradılmasını, elektron xidmətlərin mərkəzləşdirilmiş dövlət informasiya sistemləri ilə inteqrasiyasını təmin etməli idi.

**Mövzu ilə bağlı iqtisadçı-ekspert Rauf Qarayev "Şərq"ə açıqlama verib. O bildirib ki, portal kiçik və orta biznes evlərində (KOB evləri) kiçik və orta biznes subyektlərinə göstərilən xidmətlərin elektron formada, vahid platforma üzərindən göstərilməsi üzrə müraciətlərin təqdim edilməsini, qəbulunu, emalını, cavablandırılmasını, uçotunun aparılmasını həyata keçirir:** "İlk olaraq qeyd edim ki, sahibkar özünün kabineti vasitəsi ilə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün normativ hüquqi aktlarda nəzərdə tutulan sənədlər, ödəniləcək vergi və rüsumlar, hesabatlar, lisenziya və icazələr və s. əldə etmək imkanına sahib olur. Bunu misalla belə izah etmək olar. Mənim "A" şirkətim var. Mən hər hansı sənədlər üçün müxtəlif saytlara girməliyəm. Vergi üçün verginin, lisenziyalar üçün lisenziya aid sayta və sair. Yeni sərəncama əsasən, artıq sahibkara imkan yaradılacaq ki, "sahibkarın elektron kabineti" vasitəsilə bu işləri birbaşa görsün. Xalq dili ilə desək, yaradılmış marketə əlavə məhsullar gətirilir. Siz də o marketin müştərisi olduğunuz üçün o məhsulları başqa yerdən yox, birbaşa sizin evinizə gətirmək şərti ilə əldə edə bilməyiniz üçün imkan yaradılır. Yəni siz məhsulunuzu elektron vasitə ilə evinizdən seçirsiniz və xidmət də birbaşa sizə göstərilir. Yəni bunun ən müsbət tərəfi sahibkar olaraq vaxta qənaət etmiş olursunuz. Və sizə lazım olan məhsul əlinizin altındadır".

**R.Qarayev əlavə edib ki, yeni fərmanın sahibkarlar üçün ən önəmli tərəflərindən biri də odur ki, artıq sahibkarlar rüsumları birbaşa kabineti vasitəsilə ödəyəcək:** "Sığorta, bank və s. xidmətlər üçün ödəniş seçimi birbaşa kabinetdən mümkün olacaq. Prezidentin yeni fərmanı sahibkarın işini rahatlaşdıracaq və seçim imkanını genişləndirəcək".

**Aynurə Pənahqızı**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Şagirdlərin elektron yerləşdirilməsi şəffaf deyil

*Bəzi hallarda direktorlar limiti az qoyurlar, 3-4 yeri əlavə saxlayırlar ki, ordan özlərinə hansısa gəlir əldə edə bilsinlər*

I sinif şagirdlərinin elektron qəbuluna başlanılıb. Həmçinin məktəbəhazırlıq qrupları, I və X siniflər istisna olmaqla digər siniflərdə təhsil alan şagirdlər üçün də elektron yerdəyişmə prosesinə start verilib. Təhsil Nazirliyinin məlumatına görə, şagirdlərin yerdəyişməsi prosesi www.sy.edu.az portalı vasitəsilə həyata keçirilir.

Növbəti tədris ilindən Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ümumi təhsil müəssisələrində təhsil alan şagirdlərin ölkə daxilində yerdəyişməsi də elektron qaydada sözügedən portal vasitəsilə aparılacaq. Qeyd edək ki, I sinfə qəbul artıq 2 ildir ki, aparılır. Elektron yerləşdirmə və yerdəyişmədə məqsəd məktəb və valideyn arasında olan məsafənin azaldılmasına və valideynin təhsil müəssisəsi ilə təmasının daha şəffaf şəkildə təşkilini həyata keçirməkdir. Bəs prosesin mənfi tərəfləri də varmı?



**Təhsil eksperti Elşən Ramizoğlu "Şərq"ə açıqlamasında qeyd edib ki, ümumiyyətlə, birinci sinfə qəbulun elektron qaydada olması müsbət haldır:**

- Bu, şəffaflığın artmasına, valideynlərin daha rahat şəkildə seçim etməsinə imkan yaradır. Bir məqamı qeyd etmək lazımdır ki, birinci sinfə qəbul elektron şəkildə olsa da, bu günə kimi biz digər leqal hallara rast gəlmişik. Xırdalanda məktəb direktoru tanıyıram ki, rəsmi əməkdaşla birlikdə hansısa şagirdi hansısa məktəbə nəyinsə müqabilində qəbul edib. Qəbul prosesi sadədir: bir sinifdə nə qədər şagird olmalıdır, sinif otağının ölçüsü buna imkan verirsə. Məsələn, bir sinif üçün 25 şagird limiti qoyulur. Bu prosesdə valideynlər rahat şəkildə həmin sinfə qəbul prosesini keçirirlər. Limit bağlanır. Maraqlı proses burdan başlayır. Hansısa valideyn öz şagirdini həmin məktəbə yerləşdirmək istəyəndə, bəzi hallarda direktorun razılığı, bəzi hallarda hətta direktorun razılığı olmadan belə birinci sinfə qəbul prosesi həyata keçirilir. Sistem əllərindədir, lazım olanda bağlanır, lazım olarsa da açılır. Bir dəfə direktorun özü mənə söhbət zamanı dedi ki, bir şagirdi məcbur qəbul elətdiriblər, çarəsiz vəziyyətdə qalmışam ki, mən bu şagirdi harada əyləşdirim?!. Bəzi hallarda direktorlar limiti az qoyurlar, 3-4 yeri əlavə saxlayırlar ki, ordan özlərinə hansısa gəlir əldə edə bilsinlər.

**E.Ramizoğlu bildirib ki, şagirdlərin yerdəyişmə prosesi elektorn qaydada olsa da, valideynlər bundan əziyyət çəkir:**

- Çünki sistemdə işləri valideyn özü etməlidir. Təbii ki, çox zaman da edə bilmirlər. Bu zaman başqalarına müraciət edəndə də bu, nəyinsə müqabilində olur. Ümumiyyətlə, sistemə nəzarət vacibdir, ancaq təəssüf ki, yoxdur.

**Məlahət Rzayeva**

# "Bizim bir tək yolumuz var, vaksinasiya..."

Son dövrdə Azərbaycanda koronavirusa yoluxma sayı sürətlə artmaqdadır. Xüsusilə bəzi qaydaların yumşaldılması, turizm mövsümünün açıq olması artım sayına ciddi təsir göstərib. Həmçinin, insanlar arasında laqeydlik və təhlükəsizlik tədbirlərinə ciddi əməl olunmaması da bu rəqəmləri artırıb. İki həftə bundan əvvəl ölkədə gündəlik yoluxma 272 idisə, bu gün artıq rəqəmlər minin üzərindədir. Eyni zamanda, ölüm sayı da gündəlik artır.



*Ekspertlərin qəti fikridir, qorunmağın "qızıl" qaydalarına əməl etməliyik*

Təkcə bu gün açıqlanan statistikaya əsasən, 12 nəfər virusdan dünyasını dəyişib. Ümumi yoluxma sayı isə 1736 nəfərdir. Qeyd edək ki, artıq qonşu Gürcüstan hökuməti koronavirus pandemiyası ilə bağlı tətbiq edilən məhdudiyyətləri sərtləşdirmək qərarına gəlib. Belə ki, sabahdan etibarən açıq məkanlarda maskadan istifadə məcburi olacaq. Azərbaycanın bir sıra tanınmış mütəxəssisləri yoluxma ilə bağlı fikirlərini bölüşüblər.

**İnfeksionist İlahə Vəliyeva yoluxanların sayının sürətlə artdığından təəssüflənir. İnfeksionist bildirib ki, maskadan istifadəyə, məsafə və gigiyenik qaydalara artıq doğru-dürüst əməl edilmir:** "Yoluxma sayı sürətlə artsa da, sərt karantin tərəfdarı deyiləm. Çünki məlumdur ki, sentyabrın 1-dən istər restoranlar, istər bərbərxanalar, gözəllik salonları, istər digər ictimai iaşə obyektlərinə daxil olmaq üçün, - başda tibb müəssisələri olmaqla, - artıq COVİD pasportuna ehtiyac olacaq. Əgər hər kəs bu şərtə (vaksinasiya olunmaq - red) əməl edərsə, heç bir sərt karantin rejiminə gərək duyulmaz. Karantin rejiminin yumşaldılması və qadağaların götürülməsi ilə insanlarda laqeydlik, etinasızlıq daha çox vüsət aldı. Artımların əsas səbəbi də məhz budur. Lakin qaydalara əməl olunsa, vaksinasiya prosesi sürətlə davam etdirilsə, yoluxma sayının artmasının qarşısını almaq mümkün olar".

TƏBİB-in Elmi-Tədqiqat Profilaktika İnstitutunun elmi işlər üzrə direktor müavini Akif Qurbanov deyib ki, karantin rejiminin yumşaldılması, xüsusilə toyların keçirilməsinə icazə verilməsi, restoran və ticarət obyektlərinin, metronun açılması və digər yumşalma tədbirləri əhalidə müəyyən arxayınlıq yaratdı və nəticədə bu gün yoluxmaların sayında xeyli artım müşahidə olunmaqdadır. Yoluxma sayında artımın bu şəkildə davam etməsi narahatlıq yaradır. A.Qurbanov bildirib ki, yumşalma tədbirlərindən sonra insanlar arasında təmaslar artdı və təəssüf ki, pandemiya qaydalarına tam əməl olunmadığı üçün yoluxmaların da sayı artdı: "Bu onu göstərir ki, bir qədər ehtiyatlı olmalıyıq, vaksinasiya prosesində daha aktiv iştirak etməliyik. Düzdür, insanların müəyyən qismi vaksinasiya olunub, bir qismi isə xəstəliyi keçirib, ancaq nəzərə almaq lazımdır ki, vaksinasiya olunmayan, virusa yoluxmayanların da sayı çoxdur. Ona görə də hazırda yoluxmanın artması fonunda qorunma tədbirlərinə əməl etməyimiz vacibdir. Yoluxmaların sayında artım eyni zamanda onu göstərir ki, hələ də əhali arasında virusa qarşı kütləvi immun formalaşmayıb. Ona görə də qorunma qaydalarına ciddi əməl olunmalıdır. İkinci tərəfdən bizim bir yolumuz var, vaksinasiya. Vaksinasiya olunmayanlar hökmən peyvənd vurdurmalıdır. Hamımız vaksinasiya olunsaq, onda yoluxma sayları bizi o qədər də narahat etməyəcək". A.Qurbanov bildirib ki, pandemiya hələ bitməyib: "Azərbaycanda vəziyyətin nisbətən əlverişli olması dövlət tərəfindən görülən tədbirlərin nəticəsidir. Qonşu ölkələrdə nələr baş verdiyini hər kəs yaxşı görür, yəni yoluxma sayları həddən artıq çoxdur. Azərbaycanda da say artımının bu şəkildə davam etməsi artıq narahatlıq yaradır. Normal həyata qayıtmaq, yenidən sərt qaydaların tətbiq olunmamasını istəyiriksə, onda gərək ehtiyatlı olaq, hamımız vaksinasiyada iştirak edək".

**Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov yoluxma sayının artımına səbəb olan əsas faktorları sadalayıb:** "Pandemiya təcrübəsini nəzərə alsaq görərik ki, yoluxma hallarının azsaylı olduğu dövrlərdə hər dəfə karantin qaydalarında yumşalmalara getdikdə müəyyən vaxt keçdikdən sonra yenidən yoluxma sayında artım baş verir. Çünki infeksiyanın yayılmasında ən önəmli faktor insan təmaslarının artmasıdır. Məhz yumşalmalar buna gətirib çıxarır. Bu gün əvvəlki dövrlərdən fərqli olaraq müxtəlif kütləvi tədbirlərin keçirilməsinə icazə verilib, metronun fəaliyyəti bərpa olunub, iri ticarət mərkəzləri işləyir. Lakin əhalinin müəyyən hissəsində qapalı məkanlarda maskanın taxılması, sosial məsafənin gözlənilməsi və s. kimi qoruyucu tədbirlərə laqeyd münasibətini izləməkdəyik. İnsanlar bir tərəfdən yorulub, bir tərəfdən də arxayınlaşıblar. Digər səbəb isə virusun daha yoluxucu mutant variantlarının ölkəmizə daxil olmasıdır. Ən sürətli yayılan delta ştammının da bu artıma "töhfə verməsi" göz önündədir. Ancaq bir daha əhalinin nəzərinə çatdırmaq istərdim ki, pandemiya hələki bitməyib, davam edir və biz bu məsələdə çox diqqətli olmalıyıq. Qorunmağın "qızıl" qaydalarına ciddi əməl etməliyik. Digər faktor əhalidə infeksiyaya qarşı immunitetin formalaşmasıdır. Bildiyimiz kimi, bu, iki yolla baş verir: infeksiyaya yoluxaraq təbii yolla və vaksinasiya vasitəsilə. Nə qədər çox əhali kütləsi bu prosesə cəlb olunarsa, bir o qədər epidemioloji durumu nəzarətdə saxlamağa imkan yaranar. Artıq dünya təcrübəsi də bunu deməyə əsas verir ki, pandemiyadan qurtulmağın yeganə yolu məhz əhalinin kütləvi vaksinasiyasıdır. Yəni virus yayan insanın ətrafında infeksiyaya həssas olmayan şəxslərin sayı artdıqca epidemioloji zəncir qırılır və sonda yoluxma hallarının sayı azalır. Onu da qeyd etmək istərdim ki, COVID-19 infeksiyasına qarşı mövcud peyvəndlərin effektivliyi müxtəlif olsa da, 100 faizli qorunma yoxdur. Yəni peyvənd olunmuş insanların böyük əksəriyyəti ya yoluxmur, hətta yoluxarsa da belə, infeksiyanı simptomsuz, xəstəliyi daha yüngül keçirir, xəstəxanaya yatırılma hallarının, xüsusən də ağır gedişlərin sayı əhəmiyyətli dərəcədə azalır. Artıq qətiyyətlə demək olar ki, vaksinasiya dünyada yüz minlərlə insanı ölümün pəncəsindən xilas edib. Lakin hər bir vaksin olunmuş şəxs də yoluxmadan tam sığortalanmadığı üçün onlar da hələlik qoruyucu vasitələrdən digərləri kimi istifadə etməlidirlər".

**Aynurə Pənahqızı**

## Peyvənd olunanlar niyə maska taxmalıdır?

ÜST rəsmisi açıqlama verib



**"Pandemiya şəraitində 1,5 il keçirdik. İnsanlar yoruldu. Maska taxmaq asan şey deyil. Bunun fərqindəyik".**

Bunu "Real intervyu"ya müsahibəsində Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Hande Harmancı deyib.

O bildirib ki, açıq məkanlarda maskasız gəzməyə icazə veriləndə insanlar düşünmüş ola bilərlər ki, artıq ümumiyyətlə, maskaya ehtiyac yoxdur:

"Elə deyil. Azərbaycanda peyvənd olunanların sayı çox artdı. Əhalinin təxminən 25 faizi iki doz vaksinasiyadan keçib. Beş milyondan çox insan isə ən az bir doza peyvənd qəbul edib.

Peyvəndlər bizi ağır xəstəlikdən, xəstəxanalıq olmaqdan və ölümdən qoruyur. Əgər virus bizim orqanizmimizə daxil olubsa, bunu başqalarına ötürməyimizin qarşısını almır. Yəni mən xəstələnmədən peyvənd olunmuş ola bilərəm. Bilirsiniz ki, peyvəndlər 100 faiz qorumur.

Virus mənə keçibsə, onu özüm xəstələnmədən başqalarına ötürə bilərəm. Bu, o deməkdir ki, peyvənd olunsam da, maska taxmağa məcburam".

# Bir bu qalmışdı...

*Qadınlara arıqlamaq adı altında "Patı" təklif olunur*

Əsl adı metamfetamin olan və insanları özündən asılı hala salan "Patı" adlı bu maddə bir sıra ölkələrdə qadınlara arıqlamaq üçün təklif olunur. Həqiqətən də "arıqlatdığı" üçün insanlar onu istifadə edir və sonra da ondan asılı qalırdılar. Ötən gün analoji fakt ölkəmizdə də aşkar olunub.



"Bu maddə sadəcə arıqlatmır, eyni zamanda o, insanların iç orqanlarını məhv edir və sonda öldürür"

Belə ki, ölkəmizin bəzi gözəllik salonlarında onun qadınlara arıqlama dərmanı adı altında satıldığı məlum olub. Bu barədə ARB-24-ün "Gündəm" verilişinə açıqlamasında Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev də deyib. O bildirib ki, DİN-ə bununla bağlı faktlar daxil olub. E.Hacıyev xüsusi olaraq diqqətə çatdırıb ki, son günlər gözəllik salonlarında bu hal müşahidə edilməkdədir. Qeyd olunub ki, aşkarlanan faktlarla bağlı tədbirlər görülüb və qarşısı alınıb. Bəs həqiqətən də bu kimyəvi narkotik insanı arıqladırmı?

**Narkomaniya üzrə azad ekspert Emil Maqalov "Şərq"ə açıqlamasında bildirib ki, əsl adı metamfetamin olan bu narkotik maddə həqiqətən də insanları arıqladır:** "Necə ki, xərçəng və şəkər xəstəliyi arıqladır, eləcə də bu maddə insanların kəskin şəkildə kilo itirməsinə səbəb olur. Lakin bunun ən pis tərəfi odur ki, bu maddə sadəcə arıqlatmır, eyni zamanda o, insanların iç orqanlarını məhv edir və sonda öldürür. Ümumiyyətlə, metamfetamin tam böyük ağır fəsadları ola biləcək narkotikdir. Bu maddə bədəndə yaralar yaradır, ağ ciyəri deşir, insanın duruşunu dəyişir və nəticədə öldürür. Bunlar müharibə vaxtı kamikadzelər üçün istifadə edilib. Qeyd edək ki, bu maddəni ilk dəfə İkinci dünya müharibəsi zamanı alman əsgərlərə yatmasın və aclıq hiss etməsinlər deyə məcbur qəbul etdiriblər. Yaponlar da bunu təyyarə sürənlərə verərək düşmən üzərinə hücuma göndərirdilər. Bu maddə qəbul edildikdə insan bədənində təzyiq yüksəlir, bədən istiliyi artır, göz bəbəkləri böyüyür. Beynin funksiyası pozulur və istifadəçi bir çox hallarda 2-3 gün yatmır. Hətta yeməkdən imtina edir, özünü enerjik hiss edir. Bu narkotik, ümumiyyətlə, 5 ildir ki ölkəmizdə var. Sadəcə, əvvəl karantin olduğuna görə çox gözə çarpmırdı. Ancaq yumşalmaların olması və sərhədlərin açılması bir növ onun yayılmasına şərait yaratdı. Həm də yay fəsli onun yayılma əhatə dairəsini genişləndirdi. Ona görə də bu məsələlərdə hər kəsi diqqətli olmağa səsləyirəm. Ümumiyyətlə, arıqlamaq üçün bundan istifadənin yolu ölümdür. Bundan istifadə heç cür lazım deyil. Çünki o, tez bir zamanda insanı öldürür. Və bu, böyük cinayətlərdən biridir".

**Aynurə Pənahqızı**

# Təkrar yoluxsaq belə, peyvəndlənmə ən doğru çıxış yoludur

*Hazırda xəstəxanalarda reanimasiyada yatan xəstələrin hamısı peyvənd olunmayanlardır*



Hər hansı əsassız fikirlərə söykənərək peyvənd olunmayanlar və ya saxta sənədlərlə peyvənd sertifikatı alanlar, sadəcə olaraq özlərini ağır riskə atır

Digər ölkələr kimi Azərbaycan da bir ildən çoxdur ki, gözə görünməyən düşmən olan koronavirusla mübarizə aparır. Hazırda xəstəliklə bağlı vəziyyət nəzarət altında olsa da, virusa tam qalib gəlmək üçün növbəti mərhələdə kollektiv immunitet qazanmaq üçün insanlar vaksinasiya olunmalıdır.

Lakin cəmiyyətimiz istər mövcud virusa, istərsə də digər xəstəliklərə qarşı peyvəndləməyə münasibəti birmənalı deyil. Bəziləri vaksinin keyfiyyətindən şübhələnir, digərləri səhiyyə sistemimizə etibar etmir. Xəstəliklər üzərində vaksinsiz qələbə qazanmağa inananlar da var. Mövzu ilə bağlı həkimlərin fikirlərini öyrəndik.

**İnfeksionist Vasif Əliyev "Şərq"ə peyvəndin əhəmiyyətindən danışıb. O qeyd edib ki, "Covid-19" peyvəndini vurdurmaq bizi yoluxmadan qorumur, ancaq xəstəliyi daha yüngül keçirməyimizə səbəb olur:** "Sual yarana bilər. Əgər yenidən yoluxa biləriksə və buna baxmayaraq peyvənd olunmalıyıqmı? Cavab bəli! Çünki hələki bu virusa qarşı spesifik bir müalicə yoxdur və kütləvi peyvəndləmə ən doğru çıxış yoludur. İnsanlar arasında bir peyvəndin sonsuzluq yaratdığı barədə də şayiələr yayılmaqdadır. Qeyd edim ki, peyvənd olunmaqla sonsuzluq riski ilə bağlı yayılan söz-söhbətlər yalandır. Bu yaxınlarda "Biontech" peyvəndinin bu cür riski yaratmağı ilə bağlı aparılan çalışmalar da bunun əksini sübut etdi. Hazırda xəstəxanalarda reanimasiyada yatan xəstələrin hamısı peyvənd olunmayanlardır. Hər hansı əsassız fikirlərə söykənərək peyvənd olunmayanlar və ya saxta sənədlərlə peyvənd sertifikatı alanlar, sadəcə olaraq özlərini ağır riskə atır".

**Həkim-radioloq Aydın Əliyev "Şərq"ə açıqlamasında vurğulayıb ki, son günlər yeni növ koronavirusa yoluxma hallarının sayının artması insanlarda panika yaradıb:** "Panikanı aradan qaldırmaq və maarifləndirmə məqsədi ilə bir neçə nüansı qeyd edirəm. Əsas olan yoluxma sayının artması yox, ağırlaşma hallarının sayıdır. Məsələn, hər il dünyada təqribən 1 milyarda yaxın insan qrip virusuna yoluxur. Bəs niyə qrip xəstəliyinə görə karantin tətbiq edilmir? Çünki qrip xəstəliyi təqribən 95-99 faiz hallarda yüngül keçirilir. Demək ki, əsas yoluxma sayı yox, ağırlaşma faizidir. Yəni son günlərdə olan yoluxma sayının içərisində ağırlaşma faizinə baxmaq lazımdır. Əgər yeni yoluxanlar arasında xəstəliyi ağır keçirənlərin faizi aşağıdırsa, heç bir panikaya əsas yoxdur. Bir faktı qeyd edim ki, yeni yoluxanlar və ağırlaşanlar arasında peyvənd edilənlərin sayı çox azdır. Deməli, peyvənd yoluxmanı və yoluxarkən ağırlaşmanı çox azaldır. Yəni nə qədər çox peyvənd edilsək yoluxma da bir o qədər azalacaq. Ümumiyyətlə, bütün viruslar mutasiya etdikcə zəifləyir, insanla yaşamağa məcbur olur. Ən yaxın gələcəkdə isə koronavirus adiləşəcək".

**Aynurə Pənahqızı**

## Lahıcda 2000 illik kanalizasiya-su xətti aşkarlanıb

Bu, ilkin tariximizi göstərən faktdır, çay daşı ilə çəkilib



**Elmlər Akademiyası tərəfindən Lahıc Tarix Mədəniyyət Qoruğunun yaşayış məntəqəsi kimi salınmasının kəşfiyyat işləri aparılıb. Burada 2000 illik kanalizasiya-su xətti aşkarlanıb.**

Bunu Trend-ə açıqlamasında Lahıc Tarix Mədəniyyət Qoruğunun direktoru Kamal Əliyev deyib. Onun sözlərinə görə, bu, ilkin tariximizi göstərən faktdır, çay daşı ilə çəkilib. "Bir çox yerlərdə bu xəttin heç yerə çıxmadığı qeyd olunur, lakin bu, doğru deyil. Sadəcə quruluşu elədir ki, suyu filtirizasiya edir. Yalnız Girdiman kəndinə çıxan yerdə təmiz su əldə olunur. Xətt labirint formasında qurulub. Su çay daşlarına toxunaraq hərəkət etdiyi üçün təmizlənir. Əhalinin əsas gəlir mənbəyi sənətkarlıqdır. Əvvəllər 100-ə yaxın sənətkar olub, indi 40-a yaxını fəaliyyət göstərir. Mərkəzi küçəmizdə onların emalatxanası var. Turistlərin həmin emalatxanalarda ustalarla birgə işləmək imkanı da var". Onun sözlərinə görə, Lahıcda 8 metrdən hündür tikili yoxdur. Ərazimiz seysmik olduğundan tikintidə əsasən çay daşı və meşə ağacından istifadə olunur. Meşə ağacı elastik olduğundan evi uçmağa qoymur. Divarın qalınlığı 80 santimetr olur: "Misgərlik Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 2015-ci il dekabrın 15-də UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Evlərin bərpası üçün xüsusi konsepsiya var. Təmir-bərpa işləri bu konsepsiyaya uyğun şəkildə aparılır. Lahıc sakinlərinin hamısı turizmlə dolanır. Kimisi evində bişirdiyi yeməyi gələn turistə satır, kimisi evini kirayə verir, kimi dağ bitkiləri yığıb satmaqla dolanır, bəziləri sənətkar, bəziləri mağaza-obyekt sahibidir və s.

Hazırlanan qida məhsulunu turistə təqdim etmək tam sərbəstdir. Yeganə şərt Qida Təhlükəsizliyi Agentliyindən bunun üçün sertifikat alınmalıdır".

## Həyat yoldaşı sabiq nazir müavinini məhkəməyə verdi

Şikayətdə ər arvad arasında əmlakın bölüşdürülməsi və digər məsələlər yer alır



**Bu ilin fevral ayında səhhəti ilə bağlı tutduğu vəzifədən azad olunan sabiq təhsil nazirinin müavini Məhəbbət Vəliyeva həyat yoldaşı tərəfindən məhkəməyə verilib.**

Qaynarinfo xəbər verir ki, Namiq Vəliyevin iddiası əsasında həyat yoldaşı M.Vəliyevadan Yasamal Rayon Məhkəməsinə şikayət olunub. Şikayətdə ər arvad arasında əmlakın bölüşdürülməsi və digər məsələlər yer alır. Məhkəmə Namiq Vəliyevin şikayətini təmin edib. Bundan narazı qalan M.Vəliyeva məhkəmənin qərarından Apelleyasiya Məhkəməsinə şikayət verib.

## Əməkdar artist COVID-19-a yoluxdu



**Əməkdar artist Nigar Şabanova koronavirusa yoluxub.**

Bu barədə ifaçı İnstaqram hesabında yazıb. "COVID məndən də yan keçmədi. Dostlar, özünüzü qoruyun. Çox ağırdır, olduqca ağırdır, insanın nəfəsi dayanır, ağrılarına dözmək də bir ayrı çətindir" deyə, Nigar bildirib.

*Qeyd edək ki, bir müddət əvvəl N.Şabanovanın hər iki valideyni koronavirus keçirmişdi.*

# Ən böyük dərd problemli kreditlərdir

*Ona görə əksər banklar zərərlə işləyir*




"Ümumiyyətlə, pandemiya dövründə əksər bankların xərcləri və problemləri artdı"

Bu ilin II rübündə (aprel-iyun) Azərbaycandakı banklar 217,6 mln. manat xalis mənfəət əldə ediblər ki, bu da ötən ilin eyni rübü ilə müqayisədə 46,2 faiz çoxdur. Lakin buna baxmayaraq, yeddi bank II rübü zərərlə başa vurub. Bunlar "AccessBank", "Bank Avrasiya", "Günay Bank", "Muğanbank", "Yapı Kredi Bank", "Pakistan Mill Bankı" və "Bank Melli İran"dır.

Qeyd edək ki, bu banklardan "AccessBank", "Bank Avrasiya", "Yapı Kredi Bank" və "Pakistan Milli Bankı" bütöv yarım ili də zərərlə başa vurublar. Belə ki, 2021-ci ilin ilk yarısında sözügedən maliyyə təşkilatları müvafiq olaraq 2 024,0 min manat, 3 928,57 min manat, 231,69 min manat və 114,97 min manat zərər ediblər.

**Mövzu ilə bağlı bank məsələləri üzrə ekspert, iqtisadçı Əkrəm Həsənov "Şərq"ə açıqlama verib. Ekspert qeyd edib ki, bütövlükdə istənilən bankın zərərlə işləməsinin əsas səbəbi problemli kreditlərdir:** "Yəni bankın əsas funksiyası nədir? O bir qrup insan və şirkətlərdən aşağı faizdə əmanət cəlb edir və yüksək faizlə digərlərinə kredit verir. Yəni kreditlər vaxtlı-vaxtında, ya da tam qayıtmayanda bank zərərə düşür. Çünki onun əmanət və bank hesabları olanda vəsaiti qaytarmaq kimi vəzifələri də var. Amma pulu çatmır, bu da onun zərəri deməkdir. Hətta kredit sonda qaytarılırsa və ya vaxtında qaytarılmırsa, bank ehtiyat yaratmalıdır".

*Ə.Həsənov vurğulayıb ki, bankların ikinci rübü zərərlə başa vurmasının əsas səbəblərindən biri də pandemiyadır:* "Pandemiya nəinki Azərbaycanda, bütün dünyada iqtisadiyyata mənfi təsir göstərdi. Çünki pandemiya səbəbindən həm istehlakçılar, həm də biznes şirkətlər kreditlərini vaxtlı-vaxtında tam ödəməkdə çətinlik çəkdilər. Bu da problemli kreditlərin artmasına səbəb oldu. Sadəcə olaraq, bəzi banklar da var idi ki, onların durumu hətta pandemiyadan da əvvəl pis idi və pandemiya dövründə daha da ağır vəziyyətə düşdülər. Nisbətən yaxşı vəziyyətdə olan banklar pandemiya nəticəsində ən az zərərə düşdü. Ümumiyyətlə, pandemiya dövründə əksər bankların xərcləri və problemləri artdı. Sadəcə olaraq, hələlik, onların kifayət qədər kapitalı var".

**Aynurə Pənahqızı**

# Vaksinlər çox az da olsa "Delta" ştammından qoruyur

Dünyada, xüsusilə region ölkələrində - Rusiya, İran, Gürcüstanda COVID-19-a yoluxma hallarında kəskin artım müşahidə olunmaqdadır. Məlumdur ki, epidemiyanın qarşısını almaq məqsədilə ölkəmizdə də vaksinasiya prosesi davam edir. Hətta bəzi mütəxəssislərin fikrincə, vaksin olunan şəxslərin yenidən koronaya yoluxma ehtimalı yoxdur. Bir çoxları isə vaksinasiyadan sonra virusa yoluxma baş verərsə, xəstəliyin yüngül keçdiyini qeyd edir.



*Ancaq hər iki doza vaksin qəbul edən şəxslər gələcəkdə virusa yoluxmayacaq deyə bir anlayış yoxdur*

Bu günlərdə hər iki doza vaksini vurduran vətəndaşlarımızdan biri əvvəllər xəstəliyi keçirdiyi halda, yenidən koronaya yoluxduğunu deyib. Təbii ki, bu hal müəyyən suallar doğurur. Maraqlıdır, vaksin olunan şəxsin yenidən virusa yoluxması nə dərəcədə mümkündür?

Həkim-allerqoloq Şahvələd Məmmədov "Şərq"ə bildirib ki, hər iki doza vaksin qəbul edən şəxsin yenidən koronavirusa yoluxması mümkündür:

"Dünyada olduğu kimi, Azərbaycanda da vaksinasiya prosesi davam edir. Bəlkə də, region ölkələri ilə müqayisədə bu prosesi ən sürətlə davam etdirən bizik. Dünyada koronavirusun qarşısını alan ikinci bir variant yoxdur. Bu baxımdan vaksinasiya vacibdir. Təbii ki, xüsusi əks göstərişləri olan insanlar vaksin vurulmasından azaddır. İlk zamanlar Azərbaycanda Çin istehsalı olan "Sinovac" və yaxud "Koronavac" vaksinlərindən istifadə olundu. Onların da keyfiyyət sertifikatı 90 faiz özünü sınamış vaksin kimi göstərilirdi.

2 doza vaksin vurdurmaq o deməkdir ki, bundan sonra 6 ay ərzində yoluxma olmaya da bilər, olsa belə, ölüm riski sıfıra enir və xəstəlik yüngül keçir. Bunlara baxmayaraq, bəzi ağır xəstəliyi olan şəxslər 2 doza vaksin alandan sonra belə yenidən yoluxarkən çətinliklə üzləşə bilərlər. Çox təsadüfi hallarda 2 doza vaksindən sonra koronavirusun ağır keçmə ehtimalı var. Ancaq hər iki doza vaksin qəbul edən şəxslər gələcəkdə virusa yoluxmayacaq deyə bir anlayış yoxdur".

Həkim vaksinasiya prosesinin "Delta" ştammına təsirlərini də diqqətə çatdırıb: "Araşdırmalar göstərdi ki, vaksinlər az dərəcədə olsa da, "Delta" ştammından qorumaq təsirinə malikdir. Məsələn, Azərbaycanda Çin, Almaniya, Rusiya, Böyük Britaniya vaksinlərindən istifadə olunur. Onların sınaq müddəti 6 ay və 1 il ərzində müşahidə edilib. Vaksinlər 1 illik tədqiqatdan sonra istifadəyə buraxıldı. Ola bilsin, vətəndaşlarda müəyyən şübhə və tərəddüdlər yaranıb ki, necə ola bilər 6 ay və ya 1 il ərzində vaksin istehsal edildi və müsbət təsiri aşkarlandı.

Lakin tədqiqatlar göstərir ki, vaksin olunmuş insanların təkrar yoluxması, bəlkə, min xəstədən biri və yaxud ikisində aşkarlanır. Bu baxımdan vaksinasiya məsləhətli bir prosesdir".

**Yeganə Bayramova**

## Tanınmış kamança ifaçısı Salman Əliyev vəfat edib



**Tanınmış kamança ifaçısı Salman Əliyev vəfat edib.**

Trend xəbər verir ki, Tanınmış kamança ifaçısı Salman Əliyev dünən səhər saatlarında dünyasını dəyişib.

*Qeyd edək ki, Salman Əliyev uzun illər Aztvnin xalq çalğı alətləri orkestrində çalışıb.*

## "Yetim qaldım"

Xalq artisti ərinin vəfatından danışdı



**Xalq artisti Flora Kərimova şəxsi həyatı ilə gündəmə gəlib.**

"Onun sirri" proqramına qonaq olan sənətçi ikinci həyat yoldaşı Faiq Şəfiyevin vəfatından danışıb. Xalq artisti ərinin dünyasını dəyişdiyini əvvəldən hiss etdiyini deyib:

"Qızımın atası rəhmətə gedəndə hər şey dəyişdi. Bir var ki, hər şey maddi dəyişə, bir də var ki, yetim qaldım. Mən bir xadimə xanımın övladının toyuna dəvət aldım. O toyda iştirak etdim. Amma ürəyim çox narahat idi. Sonra dedim mən burada qala bilmirəm çox narahatam.

Evə gəldim. Köməkçim Yaquta dedim ki "Faiqdən xəbər var?" Faiq rayona dostunun qızının nişanına getmişdi. Daha sonra Zümrüdün bibisi zəng vurdu. Dedi "Flora, başımıza daş düşdü" .Onda dedim ki, öldü? Dedilər "Hə".

# Texniki imkanlar genişdir

*Sosial şəbəkələr vasitəsilə hər kəs ürək sözlərini, Aşura mərasimi haqqında fikirlərini bildirə bilər*



## Məhərrəm ayında bütün kütləvi mərasimlərdən çəkinmək lazımdır

Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının Məhərrəm ayının başlanması ilə bağlı yaydığı müraciətdə dini mərasimlərin mövcud karantin qaydalarına uyğun keçirilməsinin vacibliyi xüsusi vurğulanıb. Bu qaydalar 2020-ci ilin mart ayından tətbiq edilməyə başlanmışdı və Nazirlər Kabinetinin qərarı ilə pandemiya şəraiti əsas tutularaq kütləvi mərasimlərin, o cümlədən də dini mərasimlərin keçirilməsi tövsiyə edilmirdi.

İndi vəziyyət bir qədər fərqlidir. Karantin qaydalarında bəzi yumşalmalar edilib. Toy məclislərinə icazə verilib, ticarət mərkəzləri fəaliyyətini bərpa edib, açıq havada tibbi maskalardan istifadə məcburi deyil və sair. Lakin bununla yanaşı qapalı məkanlarda tibbi maskalardan istifadə, sosial məsafənin gözlənilməsi qaydaları bu gün də qüvvədədir. Həmçinin kütləvi dini mərasimlərin keçirilməsi tövsiyə edilmir. Məscidlərdə vətəndaşların sıx toplaşması, camaat namazlarının qılınması qaydaları dəyişib. İbadət yerlərinə vətəndaşlar az sayda, hissə-hissə buraxılır. Bütün bu qaydalar əlbəttə ki, ilk növbədə insanların sağlamlığının qorunması, yoluxma riskinin aşağı salınması, təhlükəsizliyin təmini məqsədi daşıyır. Qarşıdan isə əhalinin dindar təbəqəsi üçün həssas bir gün - Aşura gəlir. Məlumdur ki, əsrlərdir Azərbaycanda Aşura mərasimləri kütləvi şəkildə qeyd edilir, peyğəmbər övladı, İmam Hüseyn (ə) ehtiramla anılır, Kərbəla şəhidləri Vətən şəhidlərimizlə birgə yad edilir. Lakin pandemiya səbəbindən ötən il Aşura mərasimləri kütləvi şəkildə qeyd edilmədi. Dindarlar hökumətin tətbiq etdiyi qaydalara saygı nümayiş etdirdilər. Bu il də eyni vəziyyət olacaqmı? **"Şərq"ə açıqlamasında ilahiyyatçı Hacı Atif İsmayılov qeyd etdi ki, insan sağlamlığının qorunması ən ümdə məsələdir:**

- Məhərrəm ayında və bu ayda keçirilən mərasimlərdə məscidlərə çox sayda insan axışır. İl ərzində kütləvi məclislər məhz bu ayda daha çox keçirilir. Təbii ki, qapalı mühitdə böyük bir izdihamın sosial məsafəyə riayət etməsi qeyri-mümkündür. Ona görə də insanlara tövsiyə edilir ki, hazırkı şəraitdə kütləvi mərasimlərdə iştirakdan mümkün qədər çəkinsinlər. Məqsəd budur ki, yoluxma sayının artmasına rəvac verilməsin. Aşura günü kiçik qruplar şəklində, məsələn, 10 nəfərlik qruplar hissə-hissə məscidlərə, digər ibadət yerlərinə buraxıla bilər. Bu yolla dini mərasimlər həyata keçirilər. Həm sıxlıq yaşanmaz, həm yoluxma təhlükəsi də olmaz. Hesab edirəm ki, bu, daha münasibdir. Məsciddə ibadət etmək istəyən insan özündən başqa digər müsəlman bacıqardaşını da düşünməlidir. İslam dini insanlığa mərhəməti, paylaşmağı, yardım etməyi, insan talelərini, insan səhhətini, sağlamlığını düşünüb ona görə addım atmağı tövsiyə edir. Uca Rəbbimiz buyuyur ki, təhlükə varsa, hətta namazı belə hərəkətdə olarkən qılın, real təhlükə zamanı namazı təxirə salın, arxayın vaxtı ibadətinizi yerinə yetirin, ibadətinizi tamamlayın. Yəni Rəbbimiz bəndəsinə hər cür imkan, şərait tanıyır. Möminlər də mövcud vəziyyətə uyğun davranmalıdırlar.

**H.A.İsmayılov qeyd etdi ki, pandemiya şəraitində digər müsəlman dövlətləri də karantin şəraitinə uyğun qərarlar qəbul edir:**

- Pandemiya ilə əlaqədar hətta Kərbəlada, imam Hüseynin hərəmində 10 günlük əzadarlıq mərasimləri və Aşura təziyədarlığının keçirilməməsi haqda qərar qəbul edilmişdi. İran İslam Respublikasında pandemiya dövründə məscidlər, ziyarətgahlara giriş qadağan edildi. Səudiyyə Ərəbistanı Həcc kimi bir vacib əməlin keçirilməsini müvəqqəti dayandırdı. Bütün bunlar islamın insan həyatına, insan sağlamlığına verdiyi önəmi göstərir.

*İlahiyyatçı qeyd etdi ki, Məhərrəm ayında insanların mənəvi ehtiyaclarının ödənməsi üçün müxtəlif vasitələrdən istifadə oluna bilər:*

- Xütbələrlə çıxış etmək, fərdi şəkildə ayinlər icra etmək, ibadətlə məşğul olmaq mümkündür. Sosial şəbəkələr vasitəsilə hər kəs ürək sözlərini, Aşura mərasimi haqqında fikirlərini bildirə bilər. Texniki imkanlar genişdir. Bununla da inanclı insanların mənəvi ehtiyacları müəyyən qədər ödənmiş olar. Şəhidlərin yad edilməsi, şəhid doğmalarının ziyarəti, ehtiyaclı insanlara yardım etmək bu ayda daha böyük savabdır. İllərdir bu tədbirlər keçirilir. Bu il xüsusilə Vətən müharibəsi qalibi olan ölkəmizdə bu kimi tədbirlərə daha çox ehtiyac var.

**Məlahət Rzayeva**

# "19 yaşında qızdır, narkotikin təsirindən küçənin ortasında rəqs edir..."



## *Elza: "Halbuki, o qızın özünün övlad sahibi olası yaşıdır"*

"Karantindən sonrakı toylara qürur hissi ilə baxırdım. İştirak etdiyim məclislərdə səhnədə oynayan oğullarımıza baxanda 44 günlük Vətən Müharibəsini xatırlayırdım".

Bu sözləri yenisabah.az-a danışan Əməkdar artist Elza Seyidcahan deyib. O, pandemiyadan sonrakı məclislərə qürur hissi ilə baxdığını bildirib:

"Biz pandemiyadan əvvəlki toylara gedəndə hardasa düşünürdük ki, gənclərdir də oynayır. Lakin müharibədən sonra onlara daha fərqli baxırıq. Məclisdə oynayan gəncləri gördükcə müharibədən kadrlar süjet kimi gözlərimin önündən keçir. Düşünürəm ki, orada neçə-neçə oğullarımız özlərini fəda etdilər, 30-35 yaşlı əsgərlər 18-19 yaşlılar yaralanmasın deyə özlərini qabağa atıb, canlarını fəda etdilər. Bunları düşündükcə kövrəlirəm, qazandığımız zəfər qürur verir. Bu baxımdan pandemiyadan sonrakı toylarla əvvəlkilər arasında çox böyük fərq var.

Əsas odur ki, toylar oldu, pandemiyadan əvvəl neçə-neçə gəncimiz gəlinliksiz, duvaqsız, vağzalısız ailə qurdu. Bunlar əsas deyil əsas olan məhz xoşbəxtlikdir. Ailələr hər zaman övladlarının xoş gününü yüksək səviyyədə keçirməyə çalışır, bunun üçün əllərindən gələni edirlər".

**Sənətçinin sözlərinə görə, əsas olan dəbdəbəli məclis keçirmək yox, sağlam ailələrin təməlini qoymaqdır:**

"Bəzən görürsən ki, gənclər giley-güzar edirlər ki, "Filankəs toyunda üç paltar dəyişdi, mən birini". Əsas olan bunlar deyil, əsas qurulan ailənin sağlam və möhkəm olmasıdır. Mən özüm də anayam, qızıma, oğluma toy məclisi keçirmişəm, onlar gəlib evdə narazılıq ediblər. Həmişə onlara demişəm ki, təki gileyiniz belə xırda şeylər olsun, əsas odur xoşbəxt olasınız, narazı qaldığınız məqamları övladlarınızın 1 yaşını qeyd edəndə aradan qaldırarsınız, lap istəsəniz gəlinlik də geyinib yenidən özünüzə məclis keçirərsiniz".

**Əməkdar artist son ayların ağrılı və acınacaqlı bəlalarından biri olan nakomaniya mövzusuna da toxunub:**

"Bu gün nə qədər gəncimiz narkomaniya adlı bəlaya düçar olub, həyatları məhvə doğru gedir. Bəziləri düzgün yolda deyil, Allahın onları yaratdığı kimi qalmayıblar.

Keçən dəfə 19-20 yaşlı bir qız görürəm, narkotikin təsirində sümüklərinin ağrısından küçənin ortasında rəqs edir. Halbuki, o qızın özünün övlad sahibi olası yaşıdır. Mən gənclərimizə arzu edirəm ki, narkotikin təsirindən, sümüklərinin ağrısından deyil, vağzalı sədası altında rəqs etsinlər. Sağlam ailə qurub Vətənə xeyirli övladlar bəxş etsinlər".

# "Lütfən toxunmayın!"

Şeyda Turqut ağac kötükləri, kökləri üzərində böyük sənət əsərləri yaradıb

*(Əvvəli səh: 16-da)*



**Boş vaxtım vardı, canım sıxıldı. Yaradıcılıqla məşğul olmaq istədim. İndiyədək evdə öz kiçik emalatxanamda kətan üzərində rəsmlər çəkmişəm. Bu dəfə təbiət qoynunda rəsm çəkməyi düşündüm.**

Təbiətin özündən istifadə edərək. Bu yerləri daha öncə "gözüm almışdı". Bir gün gəlib işə başladım. Ağac köklərinin üzərində kiçik meyvə bıçağından istifadə etməklə palçıqdan bir fiqur düzəltdim. Xoşuma gəldi. İşimdən zövq aldığımı hiss etdim. Beləcə, davamı gəldi. Fiqurların sayı artdı. İnsanlar baxıb bəyənirdi. Açığı, bu qədər bəyəniləcəyini gözləmirdim. İnsanların marağı və təqdiri məni daha da həvəsləndirdi". Şeyda Turqut kənddə ağac kökləri, dərə yamaclarında palçıqdan fiqurlar düzəldib, bununla kifayətlənməyib, su anbarının divarına da mənalı rəsm çəkib. Rəsm müəllimi bunu belə izah edib: "Gördüm ki, rəngsiz, solğun bir şəkildə dayanıb. Ruhsuz, cansız görünür, rəng qatmaq istədim. Və belə bir əsər alındı".

**Məlahət**

**Elan**

Qazax rayonunun Qarapapaq kənd sakini Qurbanov Vidadi Vəli oğlunun adına verilmiş pay torpağına aid olan Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

# HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Yevlax rayon İcra və Probasiya Şöbəsinin 04.08.2021-ci il tarixli (daxil olma 04.08.2021), 191594/4 saylı sifarişi ilə Yevlax şəhəri, Nizami prospekti 115 ünvanında yerləşən 0,03 ha torpaq sahəsi və onun üzərində yerləşən ümumi sahəsi 34.2 kv. m olan yaşayış evi; Yevlax şəhərində yerləşən ümumi sahəsi 0,045 ha torpaq sahəsi və Yevlax şəhəri, Nizami prospekti 95 ünvanında yerləşən 0.0251 ha torpaq sahəsi və onun üzərində yerləşən ümumi sahəsi 162.1 kv. m olan yaşayış evi açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 24 avqust 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakların ilkin satış qiyməti (0.03 ha torpaq sahəsi və yaşayış evi) 15.000 (on beş min) manat; (0.045 ha torpaq sahəsi) 13.500 (on üç min beş yüz) manat; (0.0251 ha torpaq sahəsi və yaşayış evi) 80.000 (səksən min) manat məbləğində müəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni (0.03 ha torpaq sahəsi və yaşayış evi) - 750 (yeddi yüz əlli) manat; (0.045 ha torpaq sahəsi) - 675 (altı yüz yetmiş beş) manat; (0.0251 ha torpaq sahəsi və yaşayış evi) - 4.000 (dörd min) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

(Əlavə olaraq "Qeyd"ə bax).

Qax rayon İcra və Probasiya Şöbəsinin 04.08.2021-ci il tarixli (daxil olma 04.08.2021), 1688/2 saylı sifarişi ilə Qax rayonu, İlisu kəndində yerləşən 0.03 ha torpaq sahəsi və onun üzərində yerləşən, iki otaqlı, ümumi sahəsi 95.6 kv. m olan ev açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 24 avqust 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakların ilkin satış qiyməti ümumilikdə 25.000 (iyirmi beş min) manat məbləğində müəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni ümumilikdə 1.250 (bir min iki yüz əlli) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

(Əlavə olaraq "Qeyd"ə bax).

Bakı şəhəri Səbail rayon İcra Şöbəsinin 02.08.2021-ci il tarixli (daxil olma 06.08.2021), 160847/2021-16-22/6157 saylı sifarişi ilə, qoşa çarpayı (8 ədəd); tək çarpayı (2 ədəd); TV "LG" (2 ədəd); TV "Samsung" (5 ədəd); balaca soyuducu "Rokos" (17 ədəd); paltar üçün şkaf (17 ədəd); sadə kreslo (30 ədəd) və (1 ədəd) sex yığımı reception masası açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 24 avqust 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakların ilkin satış qiyməti ümumilikdə 4.880 (dörd min səkkiz yüz səksən) manat məbləğində müəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 10%-i, yəni ümumilikdə 488 (dörd yüz səksən səkkiz) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

*(Əlavə olaraq "Qeyd"ə bax).*

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) saat qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti.

**Hərracın təşkilatçısı**
**"Əmlak Hərrac Mərkəzi" MMC**

*Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.*
*Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com*
*rəsmi internet saytı: e-herrac.com*


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon:** 447-32-41
538-44-50, internet 538-44-15,
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1464

# 4 ay tez doğulan körpə sürətlə böyüyüb

"Yu Xuan hazırda 6,3 kiloqram ağırlığındadır"



**Sinqapurda dünyanın ən kiçik körpəsi olaraq dünyaya gələn və 212 qram ağırlığında, 24 sm uzunluğundakı Kvek Yu Xuan 13 ay reanimasiyada qaldıqdan sonra evə buraxıldı.**

Körpənin anasına preeklampsi diaqnozu qoyulduqdan sonra doğuş təcili olaraq qeysəriyyə yolu ilə 4 ay tez baş verdi. Preeklampsi diaqnozu həyati orqanlara zərər verə bilən, həm ana, həm də körpə üçün ölümcül təhlükə yaradan təhlükəli yüksək təzyiqdir. "Şərq" "Haberler.com"a istinadən bildirir ki, hamiləliyin 25 -ci həftəsində doğulan Yu Xuan hazırda 6,3 kiloqram ağırlığındadır. Sinqapur Milli Universitet Xəstəxanasından bildirilib ki, körpənin doğulduqda sağ qalma şansı çox məhdud idi. Xəstəxanadan verilən açıqlamada deyilib: "Yu Xuan bütün çətinliklərə baxmayaraq, inadkarlığı və böyüməsi ilə ətrafındakı insanlara ilham verdi".

**Yeganə**

# İlanı ağzına alıb çeynədi

İntiqam aldı, amma sonu dəhşətli oldu



**Hadisə Hindistanın Bihar əyalətində baş verib.** "Şərq" "Milliyyet.com"a istinadən xəbər verir ki, Bihar əyalətinin sakini 65 yaşlı hindli - Rama Mahto yaxınlarıyla içki məclisi təşkil edib. Bu zaman ilan balası sərxoş kişini ayağından sancıb. Bunu içki məclisindəkilər də görüb. Bundan əsəbiləşən Rama Mahor ilanı tutub, ağzına alaraq dişləməyə başlayıb. İlan balası isə bu təcavüzə Ramanın yanaqlarını bir neçə dəfə dişləməklə qarşılıq verib. Kişi ilanı çeynəməkdən yorulub, onu bir ağacın dibinə buraxıb. Yaxınları ona xəstəxanaya gedib ilan zəhərinə qarşı iynə vurdurmağı təklif edib. Rama Mahor isə ilan balasının öldürücü zəhərə malik olmadığını söyləyərək xəstəxanaya getməkdən imtina edib. Səhər saatlarında isə Rama Mahor evində ölü vəziyyətdə tapılıb.

**Məlahət**

# Alovlardan qurtulan sincab balası...

Artıq təbiətdə özgür yaşaya bilməyəcək



**"Alovlardan xilas edilən sincab balasının arxa ayaqları qanqrendir.** Artıq təbiətdə özgür yaşaya bilməyəcək".

Bu sözləri veterinar həkim Səfər Küçükər ürək yangışı ilə Dəmirörən Xəbər Agentliyinin (DHA) müxbirinə açıqlamasında deyib. Antalyanın Manavqat bölgəsində 10 gün davam edən meşə yanğınlarında alovların əhatəsində qalmış sincab balası heyvansevərlər tərəfindən xilas edilib. Bala sincab müalicə olunmaq üçün Antalyadakı özəl klinikalardan birinə gətirilib. Sincab balasına 3-cü dərəcəli yanıq diaqnozu qoyulub. Və həyatda qalması üçün lazım olan müalicə metodlarından istifadə edilir. Burnu, boynunun kökü və ayaqları yanmış sincabın həyatına hələ də təhlükə var. Bala sincabın ciyərləri yanğın dumanının təsirinə məruz qalıb. Həkimlər ciyərləri çalışdırmaq üçün oksigen balonundan istifadə edib. Bala sincabı enjektor vasitəsilə qidalandırıblar. Sincabın gözlərinə də göz dərmanı tökülüb. Arxa ayaqlarında yanğının təsiri ilə qanqrena əmələ gəlməsi isə həkimlərin işini çətinləşdirir. Sincab balasını müalicə edən veterinar həkim Səfər Küçükər deyib ki, sincab arxa ayaqlarını itirəcək. Çünki arxa ayaqlarda qanqrena əmələ gəlib. Bundan sonra sincab təbiətdə müstəqil şəkildə yaşaya bilməyəcək. Tam sağalandan və həyati təhlükəsi aradan qalxdıqdan sonra sincab mütləq heyvan sığınacağına yerləşdirilməlidir ki, insanlar tərəfindən qidalandırılsın. Müalicə isə hələ bitməyib. Bala sincab ən azı 1 ay xəstəxana şəraitində qalmalıdır.

**Məlahət**







# "Lütfən toxunmayın!"

*Şeyda Turqut ağac kötükləri, kökləri üzərində böyük sənət əsərləri yaradıb*







**Rəsm müəllimi, 32 yaşlı Şeyda Turqut İngiltərədən Vətəni Türkiyəyə dönüb və doğma yurdu Düzcənin Ağcaqoca bölgəsində elə mənzərələr yaradıb ki, görənlər heyran qalır.**

Gənc müəllimə sadəcə meyvə bıçağı ilə möhtəşəm əsərlər meydana gətirib. Həm də ağac kökləri, yamaclarda, divarda, su kanalı boyunca... Türkiyə meşə yanğınları ilə mücadilə etdiyi hazırkı kritik vaxtda Şeyda Turqutun ağac kökləri üzərində, meşəlikdə meydana gətirdiyi əsərlər təbiətə sevginin ən böyük təzahürüdür. "Şərq" Türkiyə mediasına istinadən xəbər verir ki, Şeyda Turqut meyvə bıçağı ilə çəkdiyi rəsmlərin, yonduğu heykəllərin yanına bir qeyd də yazıb. Bu yazı da görənləri heyrətləndirir. Rəsm müəlliməsi bunları yazıb: "Lütfən, toxunmayın. Tarixi əsər deyil. Boşuna həyəcanlanmayın!.." Rəsm müəlliminin ağac kökləri üzərində ərsəyə gətirdiyi heykəllər onun təbiətə vurğunluğunun isbatıdır. Şeyda Turqut ideyanın necə meydana gəldiyi barədə danışıb: "Xaricdə yaşayırdım. Pandemiya dönəmində Türkiyəyə qayıtdım. Təbiətdə yaradıcılıq üçün hər cür alət, vasitə tapmaq mümkündür.

*(Davamı səh: 15-də)*

**Məlahət**

# 3800 yaşlı mumiya

Gözəlliyi ilə hər kəsi heyran etdi







**Çinin Şərqi Türküstan əyalətinin əkinçilik hövzəsində tapılan mumiya əsrlər keçməsinə baxmayaraq gözəlliyi ilə diqqət çəkir.**

"Şərq" "Ntv.com"a istinadən xəbər verir ki, mumiya Çinin quraq Sincan əyalətindəki Tarim hövzəsində tapılan onlarla mumiyadan biridir. Çinin bir müddət sərgiləməkdən qorxduğu və "Lolan Gözəlliyi" olaraq adlandırılan mumiya ölçü və görünüş baxımından asiyalıya bənzəmir. Mumiyanın xüsusiyyəti bölgədə çinlilərdən çox əvvəl yaşaması və görünüşünün Qafqaz xalqına bənzəməsidir. Bu iki element Çin torpaqlarında ilk məskunlaşanların avropalılar olduğu nəzəriyyəsini də irəli sürür. Çinlilərdən fərqli olaraq daha uzun boylu, ağ dərili, uzun kirpikli və nazik düz burunlu mumiya Avropa görünüşünü xatırladır. Bu baxımdan 3800 illik gözəllik Çin hökumətini sarsıtdı və siyasi səbəblərdən dolayı ABŞ-dakı sərgidən geri çəkildi.

**Yeganə**

# Kolların arasında paketdə körpə tapılıb

Üzündəki qəmzələr səbəbiylə ona "Qəmzə" adı verilib



**Türkiyənin Bursa şəhərinin Orhangazi qəsəbəsində keçən həftə şənbə günü kolluqlar arasında paketdə tapılan qız uşağı qoruma altına alınıb. Üzündəki qəmzələr səbəbiylə ona "Qəmzə" adı verilib.**

Tarlada çalışan insanlar keçən həftə şənbə günü axşam saatlarında yolun kənarında körpə səsi eşidiblər. Səsin gəldiyi yerə doğru gedən kəndçilər, kolluqların arasında paketdə bir körpə ilə qarşılaşıblar. Bölgəyə jandarma və sağlamlıq qrupları gəlib. İlk müdaxilənin ardından körpə, Orhangazi xəstəxanasına aparılıb. 3 günlük körpənin qadın doğum xidmətində müalicəsinə başlanıb. Hazırda sağlamlıq vəziyyətinin yaxşı olduğu bildirilən körpə, uşaq evinə təslim edilib.